# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 27 (3351) Şənbə / 13-15 mart 2021-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## Hərbi qələbəni diplomatik zəfərə çevirməliyik



**Əvəz Temirxan,**
Azərbaycan Liberal Partiyasının sədri

***Vətən Müharibəsində hərbi qalibiyyətimiz regionun geosiyasi mənzərəsini dəyişsə də, ikili yanaşmalar davam edir. Ərazilərini işğaldan azad edən dövlət hərbi zəfərdən sonra diplomatik qələbəni təmin etməyə məcburdur. Bu, cəmiyyətdən güc birliyi tələb edir. Belə bir vaxtda partiyaların sərgilədiyi mövqe maraqla izlənir və çoxlu suallar yaranır. Partiyalar nə etməlidir, siyasi cəmə, bütövlükdə cəmiyyət hazırkı prosesdə nəyə diqqət etməlidir? Bu və digər məsələlərlə bağlı "Həftə içi"nə müsahibə verən Liberal Partiyasının sədri Əvəz Temirxan maraqlı nüanslara diqqət çəkib.***

*Partiyaların maliyyələşməməsi bəzi partiyaları məcbur edir ki, dolayısı yollarla xarici ölkələrdən qrant alsın*

Səh. 3

# Amerika ədalətinin riyakarlığı





***Bu** günlərdə belə bir xəbər dolaşdı ki, 1982-ci il yanvar ayının 28-də Türkiyənin Los Anceles şəhərindəki Baş konsulu Kamal Arıkanı qətlə yetirən erməni terror təşkilatının üzvü, Livanəsilli 19 yaşlı erməni terrorçu Hampiq (Harri) Sasunyan həbsdən azad ediləcək və artıq Ali Məhkəmə bununla bağlı qərar verib. Hansı ki, adıçəkilən terrorçu ömürlük həbs olunub və peşmançılıq duymadığı təqdirdə, məhkəmə qərarının dəyişdirilməsindən söhbət belə gedə bilməz. Bu terrorçu isə törətdiyi cinayətdən əsla peşman olmadığını əvvəllər dəfələrlə bəyan edib.*

## Erməni terrorçu azad edilib

Bəs nə oldu, nə baş verdi ki, hazırda 58 yaşı olan və 38 ildir zindanda yatan bu terrorçunun sərbəst buraxılması yada düşdü? Əslində, Hampiq Sasunyanın şərti azadlığa buraxılması məsələsi ilk dəfə 14 dekabr 2016-cı ildə qaldırılıb və Kaliforniya Əfv Şurası müraciəti qəbul edib. Kaliforniya valisi Cerri Brovn Əfv Şurasının qərarını rədd edərək, erməni terrorçunun şərti azadlığa çıxmasına icazə verməmişdi. Həmin vaxt ermənilər şayiə yaymışdılar ki, guya valiyə türk-Amerika Əməkdaşlıq Şurası ciddi təzyiq göstərib və sair. Əlbəttə, bu iddialar çox gülüncdür. Kaliforniyada yüzminlərlə erməni yaşayır ki, onların lobbisi, nəinki Kaliforniyanın yerli idarəetmə orqanlarının, hətta ABŞ federal hakimiyyəti üzərində ciddi təsiredici qüvvəyə malikdir. Bu gün Kaliforniyanı tamam başqa vali idarə edir və onun da sələfi kimi cəsur qərar verib-verməyəcəyi bəlli deyildi.

Bu yerdə xatırladaq ki, Sasunyanın azadlığa buraxılması məsələsi 2006, 2010, 2013 və 2015-ci illərdə qaldırılsa da, Əfv Şurası bütün müraciətləri rədd etmişdi. Göründüyü kimi, 2016-cı ildə Şura təklifə müsbət rəy verdi.

Yəni Amerika idarəetmə sistemində mövqelər şəraitə və təzyiqlərə uyğun olaraq tez-tez dəyişir. Ona görə də Türkiyə və hətta Azərbaycan diplomatları və diaspor təşkilatları əks-həmləyə keçməklə terrorçunun sərbəst buraxılmasının qarşısını almalıdırlar. Yəni apelyasiya şikayəti edilməlidir.

Bu arada, Türkiyə tərəfi Los Anceles Ali Məhkəməsinin qərarından təəssüfləndiyini bildirib. "Los Anceles Ali Məhkəməsinin şəhid Baş konsulumuz Kamal Arıkanı qətlə yetirən erməni terrorçu Hampiq Sasunyanın azad edilməsinin şiddətlə qınayırıq. Kaliforniya qubernatoru Qavin Nyusomun bu qərardan apellyasiya şikayəti verməməsini isə hüquq çərçivəsindən kənar hərəkət kimi qiymətləndiririk", - deyə bildirilib.



KEMAL ARIKAN
TURKISH CONSUL GENERAL TO LOS ANGELES
ASSASSINATED JANUARY 28, 1982



HAMPIG SASSOUNIAN
JCAG ASSASSIN
SAN QUENTIN PRISON, INMATE C88440

***Biz şərti azadlığa qarşı çıxırıq. Diplomatın ünvanına hədə - qorxu yalnız ciddi cinayət deyil, bütövlükdə diplomatiyaya təhlükədir***

Azərbaycan Xarici İşlər Nazirliyi də erməni terrorçu Hampiq Sasunyanın azad edilməsinə yol açan qərarın qəbul edilməsini qınayıb. "Türk diplomatı qətlə yetirmiş və islah olunmamış terrorçu H.Sasunyanın azad edilməsi çox səhv siqnal verəcək və xüsusilə dünyanın ən böyük diplomatik korpuslarından birinə sahib bir dövlətdə diplomatiyanın maraqlarına zərər verəcək", - məlumatda qeyd olunub.

■ **Məsələyə ABŞ hökuməti də reaksiya verib. ABŞ-ın Dövlət katibi Entoni Blinken bildirib ki, 1982-ci ildə Türkiyənin Los-Ancelesdəki baş konsulu Kamal Arıkanı qətlə yetirmiş erməni terrorçu Hampinq Sasunyanın şərti azadlığa buraxılması barədə məhkəmə qərarından son dərəcə məyus olub.**

"Birləşmiş Ştatlar həmişə diplomatların təhlükəsizliyini prioritet məsələ hesab edib və bu cür cinayətlərə aidiyyəti olan şəxslərin maksimum sərt cəzalandırılmasının tərəfdarıdır. Biz şərti azadlığa qarşı çıxırıq. Diplomatın ünvanına hədə - qorxu yalnız ciddi cinayət deyil, bütövlükdə diplomatiyaya təhlükədir", - deyə Dövlət katibinin yazılı bəyanatında bildirilir.

Ümumiyyətlə, ASALA terroru nədir və onların hücumu nəticəsində hansı türk diplomatlar qətlə yetirilib?

ASALA və JCAG kimi erməni terror təşkilatları ümumilikdə 58-i Türkiyə vətəndaşı olmaqla, 77 nəfəri terror nəticəsində qətlə yetirib ki, onlardan 31-i diplomat və onların ailə üzvləridir. ASALA ilk dəfə 1975-ci il yanvarın 20-də bombalı terror aktı törətməklə öz varlığını dünyaya elan edib. Beyrutda Daşnak partiyasının üzvləri tərəfindən qurulan təşkilat erməni diasporları tərəfindən maliyyə dəstəyi alıb. Türklərə qarşı ilk terror hücumu isə 1975-ci il oktyabrın 22-də Avstriyada gerçəkləşdirilib. Hadisə zamanı Türkiyənin Avstriyadakı səfiri Daniş Tunalıgil şəhid edilib.

Daha sonradan silsilə şəklində, 1991 və 1994-cü illərdə Türkiyənin Afinadakı səfirliyinin mətbuat attaşesinin köməkçisi Çetin Görgü və Səfirliyin müşaviri Ömər Haluk Sipahioğlu, 1993-cü ildə Türkiyənin Bağdaddakı səfirliyinin attaşesi Çağlar Yücəl, 2004-cü ildə Mosulda təhlükəsizlik attaşeləri Nihat Akbaş, Bilal Urgen, Adəm Çiçək, Bülənt Kıranşal və Süleyman Karahasanoğlu, 2013-cü ildə Türkiyənin Moqadişodakı səfirliyində çalışan polis Sinan Yılmaz və ötən il də Türkiyənin Ərbildəki Baş konsulluğunun təmsilçisi Osman Köse şəhid edilib. İş bununla bitmir, ABŞ-ın Santa Barbara şəhərində, 27 yanvar 1973-cü ildə Türkiyənin Los Ancelesdəki Baş konsulu Mehmət Baydar və konsul Bahadır Dəmir də şəhid edilib.

Səh. 2

MÜSAHİB



**Yelmar Məmmədli,**
jurnalsit döyüşçü

■ *O kadrlar var və nə vaxtsa üzə çıxacaq...*

■ *Azad olunan rayonlarımız haqqında informasiyada çox boşluq var.*

■ *Xocalı sakini olan qadın Ağdamda yoldaşının qəbrini axtarırdı, tapa bilmədi.*

Səh. 6

GÜNÜN FOTOSU...



**Azərbaycan-Ermənistan sərhədində yeni hərbi hissə açıldı...**

GÜNÜN SİTATI

*"Snayperçi Maral Nacaryanın Qarabağda saxlanılması xaricdən kimlərin gəlib hansı tərəfdə döyüşməsinin sübutudur. Azərbaycan Maral Nacaryanı, sadəcə, qadın olduğu üçün Livana təhvil verib"*



**Səməd Seyidov,**
Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin rəhbəri

KARİKATURA



**Deyirlər, bərk şaxtalar olacaq...**

## Məktəbdə aqressiya-bullinq

**Nadir İsrafilov**
Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini

Vəziyyət hər kəsi narahat etməli, bu kimi hadisələrin baş verməsəbəbləri barədə ciddi düşündürməli, profilaktik tədbirlər kompleks şəkildə aparılmalıdır.

Səh. 4

STATİSTİKA



■ **2020-ci ilin 366 gününün 293 günü karantin rejimi tətbiq edilib.**

Hafta.az-ın məlumatına görə, bu, Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında icmal hesabatda əksini tapıb. Qeyd olunub ki, bunun 110 günü sərtləşdirilmiş karantin rejimi olub. Qeyd edək ki, ölkədə karantin rejiminin tətbiqinə keçən ilin martında başlanılıb.



Səh. 5

## İntihar - Allaha imanın çatışmazlığı sindromudur

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları hərbi qulluqçularının təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

"Vətən uğrunda" medalı ilə

Abbasov Vurqun Arif oğlu - polkovnik

Cəbrayılov Rövşən Ata oğlu - polkovnik

"İgidliyə görə" medalı ilə

Məmmədov İlqar Aydın oğlu - general-mayor

İsmayılov Alim Şükür oğlu - polkovnik

Məmmədov Sahib Kamaləddin oğlu - polkovnik

"Hərbi xidmətlərə görə" medalı ilə

Babayev Eldar Muxtar oğlu - polkovnik-leytenant

İsmayılov Eyvaz Əvəz oğlu - polkovnik-leytenant

Məhərrəmov Zaur Barat oğlu - polkovnik-leytenant

Məmmədov Vüqar Təhməz oğlu - polkovnik-leytenant

Ələkbərov Rəşad Rafiq oğlu - mayor

Tağıyev Arzuman Nadir oğlu - kapitan

Qurbanov Elçin Yaşar oğlu - baş leytenant.

## Ermənistan Azərbaycan ərazilərinə hərbçilər göndərməyə cəhd edir



**Azərbaycan Respublikası Xarici İşlər naziri Ceyhun Bayramov ilə Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar arasında görüş baş tutub.**

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti idarəsindən hafta.az-a verilən xəbərə görə, görüşdə nazir Ceyhun Bayramov bölgədə mövcud olan cari vəziyyət, 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, o cümlədən Ermənistan tərəfindən Azərbaycanın ərazilərinə hərbçilərini göndərmək cəhdləri, gündəlik əsasda insanların həyatı üçün birbaşa təhlükə təşkil edən mina xəritələrinin Azərbaycana verilməsindən imtina edilməsi kimi məsələlər barədə qarşı tərəfə məlumat verib.

Nazir, həmçinin bölgədə həyata keçirilən quruculuq və bərpa prosesləri bu xüsusda Aİ-nin mümkün rolundan danışdı. Xüsusi nümayəndə Toivo Klaar bölgədə sülhün qazanılması üçün birgə çalışmağın vacibliyini qeyd edib. Aİ-nin bölgədə sülh, təhlükəsizlik və tərəqqinin əldə olunması prosesini dəstəkləməyə hazır olduğunu vurğuladı. Tərəflər, eyni zamanda Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi apardılar.

## Polad Bülbüloğlu Lavrova təşəkkür məktubu göndərib



**Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Rusiyanın xarici işlər nazirini Sergey Lavrova təşəkkür məktubu göndərib.**

Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova keçirdiyi brifinqdə bildirib. Rusiyada akkreditə olunan xarici diplomatların və onların ailə üzvlərinin koronavirusa qarşı peyvənd olunması prosesindən danışan M. Zaxarova deyib ki, Rusiya bunu beynəlxalq hüquqi sənədlərə və diplomatik işin norma və ənənələrinə uyğun olaraq həyata keçirir: "Nəzərinizə çatdırım ki, artıq bir çox xarici diplomat koronavirusa qarşı Rusiya vaksini ilə peyvənd olunub. Onu da bildirim ki, Rusiya xarici işlər naziri Sergey Lavrovun ünvanına Azərbaycan səfiri Polad Bülbüloğlu adından təşəkkür məktubu daxil olub. Xatırladım ki, Polad Bülbüloğlu Moskvadakı diplomatik korpusun duayenidir. Təşəkkür məktubunda qeyd olunur ki, Rusiya Xarici İşlər Nazirliyinin təşəbbüsü dərin hörmətə layiqdir və bütün diplomatik korpus tərəfindən yüksək qiymətləndirilir".

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

### Gündəm

# Prezident "N" saylı hərbi hissənin açılışında iştirak edib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev martın 12-də - Daxili Qoşunların yaranması günündə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Bakının Sabunçu rayonunda yeni inşa olunan "N" saylı hərbi hissəsinin açılışında iştirak edib. Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*





Nazir Vilayət Eyvazov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, hərbi hissədə şəxsi heyətin xidmət, məişət, sıra və döyüş hazırlığı səviyyəsinin yaxşılaşdırılması tədbirləri çərçivəsində qərargah və əsgər kazarması, yeməkxana, tibb, qarovul, texniki nəzarət, buraxılış məntəqələri, digər köməkçi binalar inşa olunub, idman şəhərciyi yaradılıb. Yeni binalar zəruri avadanlıq və inventarla təchiz edilib. Mövcud binalar isə əsaslı təmir olunub. Hərbi hissədə mərkəzləşdirilmiş havalandırma, yanğından mühafizə və videomüşahidə sistemləri quraşdırılıb.

Prezident, Ali Baş Komandan hərbi hissədə yeni inşa edilən qərargah, əsgər yataqxanası, tibb məntəqəsi və yeməkxana ilə tanış oldu. Diqqətə çatdırıldı ki, hərbi hissədə xidməti yüksək səviyyədə aparmaq üçün bütün imkanlar yaradılıb.

Qeyd edək ki, əsgər və zabitlərin xidmət şəraitinin yaxşılaşdırılması onların döyüş qabiliyyətini artırmaqla bərabər, istənilən vəzifənin icrasına birbaşa təsir göstərən amillərdəndir.

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Daxili Qoşunların xüsusi təyinatlıları üçün nəzərdə tutulan silah-sursata və kütləvi iğtişaşların dağıdılmasında istifadə olunan texnikaya və komendant postlarına baxdı. Bu postlar işğaldan azad olunmuş ərazilərdə xidmət aparmaq üçün hazırlanıb.



Qeyd edək ki, Daxili Qoşunların şəxsi heyəti ictimai asayişin qorunmasında və təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirak edir. Birinci Qarabağ müharibəsində olduğu kimi, Vətən müharibəsində də Daxili Qoşunların xüsusi təyinatlıları vahid komandanlıq altında Azərbaycanın haqq işinin müdafiəsində fəal iştirak ediblər. Birinci Qarabağ müharibəsində Daxili Qoşunların 9 hərbçisi Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb. 44 günlük Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 hərbi qulluqçu isə yaralanıb, 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

Prezident, Ali Baş Komandan İlham Əliyev ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, sosial-məişət şəraitinin daha da yaxşılaşdırılmasına, xidməti vəzifələrini layiqincə yerinə yetirən hərbi qulluqçuların mükafatlandırılmasına xüsusi diqqət yetirir.

Azərbaycan Prezidentinin 2021-ci il 12 mart tarixli Sərəncamına əsasən Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının iki hərbi qulluqçu "Vətən uğrunda", üç nəfər "İgidliyə görə", 7 nəfər isə "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunması bunun əyani göstəricisidir.

Xatırladaq ki, Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur hissələrindən biri kimi Daxili Qoşunlar şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların Konstitusiya hüquqlarını və azadlıqlarını cinayətkar qəsdlərdən qorumağa, mühüm dövlət obyektlərinin, kommunikasiya qurğularının mühafizəsini həyata keçirməyə, ictimai asayişin mühafizəsinin, ictimai təhlükəsizliyin təmin olunmasını, habelə qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə qadirdir və hazırdır.

Hərbi hissə ilə tanışlıqdan sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Daxili Qoşunların bütün şəxsi heyətini təbrik etdi.

# "Qarabağ münaqişəsi bitib"

*"Qarabağ münaqişəsi təxminən 4 ay bundan əvvəl bitib. İndi Ermənistan siyasi böhran içindədir, Azərbaycan cəmiyyəti isə əksinə, daha da həmrəydir.*



Bakının mərkəzində azərbaycanlıların qürurla saldıqları Zəfər parkında Qarabağ müharibəsində qənimət götürülmüş erməni hərbi texnikası nümayiş etdiriləcək. Hansı ki, bu yaxınlara qədər həmin tankların lüləyi Azərbaycana tuşlanmışdı. Azərbaycanın hər yerində, "Qarabağ Azərbaycandır!" şüarları yazılıb. Xüsusilə də Bakıda qələbə sevincinin izlərini görməmək mümkün deyil". Bu fikirlər Rusiyanın RBK telekanalının Dağlıq Qarabağla bağlı hazırladığı "Müharibəsiz Qarabağ" adllı layihəsində yer alıb. Müəllif ikinci Qarabağ müharibəsinin nəticələri, işğaldan azad edilən ərazilərdə aparılan quruculuq və yenidənqurma işləri, tarixi abidələrin bərpası və qorunması, Azərbaycan Prezidentinin yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında səslənən məsələlərə toxunulub. Reportajı ərsəyə gətirmək üçün jurnalist çəkilişləri Bakı və Gəncə şəhərləri, Füzuli, Laçın və Xocavənd rayonlarında gerçəkləşdirib.

İlk növbədə reportajda işğaldan azad olunan ərazilərin xarabalığa çevrilməsi xüsusi qeyd olunur. Bildirilir ki yolun kənarında kəndlərin adları yazılmış lövhələr basdırılsa da, kəndlərin özü yoxdur. Ermənilər Qarabağı tərk edərkən, evləri yandırıb, ağacları kəsib. Müharibənin bitməsindən 4 ay keçsə də, Qarabağda həyat qaynayır. Qarabağ döyüş meydanından tikinti meydanına çevrilir, yollar və kommunikasiya xətləri çəkilir.

Fevralın 26-da Azərbaycan Prezidentinin yerli və əcnəbi jurnalistlər üçün təşkil etdiyini mətbuat konfransına qatılan müəllifin Prezidentə "rusiyalı sülhməramlıların Qarabağ ərazisini tərk etdikdən sonra Laçın dəhlizinin taleyi" ilə bağlı ünvanladığı sual da hazırladığı reportajda yer alıb.

Müxbir Laçın rayonuna səfərindən bəhs edərək erməni vandalizminin növbəti qurbanı olan Ağoğlan kilsəsində ətraf ərazilərin dağıdıldığı diqqətə çatdırır. Sonra da Prezident İlham Əliyevin Qarabağdakı xristian dini və mədəni abidələrin layiqincə qorunacağı ilə bağlı fikirlərini xatırladır.

Reportajda azərbaycanlıların ermənilərlə yenidən birgə yaşaya biləcəyi barədə Gəncədə sakinlər arasında keçirilən sorğu təqdim edilir. Buradan belə qənaətə gəlmək olar ki, yaşlı nəsil buna hazırdır. Lakin gənclər ermənilərlə dostluğa ehtiyatla yanaşırlar"- deyə reportajda qeyd olunur. Füzuli rayonunda apardığı şəkilişdə repartyor Füzuli rayonundan bəhs edir və Azərbaycan ordusunun döyüşlərə Füzulidən başladığını diqqətə çatdırır. Bu ərazidə döyüşlərin ağır texnika ilə aparıldığını vurğulayır: "Uzaqda ermənilərin qurduğu müdafiə səngərləri görünür. Füzulidə istehkamçılar və xüsusi təlim keçmiş itlər ərazilərin minalardan təmizlənməsi ilə məşğuldurlar. Şuşa yolunun da minalardan təmizlənməsinə ötən ilin sonundan başlanıb, işlərin yayda başa çatacağı gözlənilir", deyə reportajda bildirilir.

Jurnalist Qarabağda üç aeroportin tikildiyini, Füzulidə bir neçə rayonu elektrik enerjisi ilə təmin edəcək elektrik stansiyasının təməlinin qoyulduğunu, Aeroportdan çəkilən Zəfər yolunun Azərbaycan ordusunun Şuşa doğru irəlilədiyi Qələbə yolu olduğunu diqqətə çatdırır. Reportajı Xocavənddə apardığı çəkilişilə tamamlayan müəllif sovet dövründə Böyük Tağlar kəndində Qarabağda yaşayan azərbaycanlılarla ermənilərin bir yerdə yaşadıqlarını xatırladır. "İllər əvvəl Ermənistan silahlı qüvvələri tərəfindən doğma kəndindən qovulan azərbaycanlılar 2020-ci ilin noyabrında yenidən öz torpaqlarına geri qayıdıb" deyə Rusiyanın RBK televiziyasında yayımlanan reportajda qeyd olunur .

# Amerika ədalətinin riyakarlığı: erməni terrorçu azad edilib

◂ əvvəli 1-ci səhifədə

Türkiyənin Parisdəki səfiri İsmayıl Erez 1975-ci, Vatikandakı səfir Taha Carım 1977-ci ildə, Sidneydəki Baş konsul Şarık Aynak 1980-ci ildə, Los Ancelesdəki Baş konsul Kamal Arıkan və Bostondakı Fəxri konsul Orxan Gündüz 1982-ci ildə, Belqraddakı səfir Qalip Balkar 1983-cü ildə ASALA tərəfindən qətlə yetirilib.

Türk diplomatlara qarşı terror hücumları 1985-ci ildən sonra azalsa da, hər halda davam etdi. Yuxarıda da qeyd etdiyimiz kimi, Türkiyənin Afinadakı səfirliyinin mətbuat müşavirinin yardımçısı Çətin Görgü 1991-ci ildə, Səfirliyin məsləhətçisi Ömər Haluk Sipahioğlu isə 1994-cü ildə terrorun qurbanı olub. Terror hücumlarında diplomatların ailələri və sürücüləri də hədəf seçilib. Məsələn, Türkiyənin Madriddəki səfiri Zəki Kuneralpın həyat yoldaşıi Necla Kuneralp və təqaüdddəki səfir Bəşir Balcıoğlu 1978-ci ildə qətlə yetirilib. Eyni zamanda, Türkiyənin Lissabondakı səfirliyinin ataşesi Erkut Akbayın həyat yoldaşı Nadidə Akbay da avtomobilində, səfirliyin müstəşarı Yurtsev Mıhçıoğlu və həyat yoldaşı Cahide Mıhçıoğlu da səfirliyə edilən hücum zamanı öldürülüb.



**■ Atatürk Universiteti nəzdində fəaliyyət göstərən Qondarma Soyqırım İddialarına Qarşı Mübarizə Dərnəyinin (ASİMED) sədri Savaş Eğilməz deyir ki, Hampiq Sasunyanın törətdiyi terror hadisəsindən peşman olduğunu isbatlayan hər hansı dəlil olmadığı halda, onun azad edilməsi ABŞ-da qanunların ayaqlar altına atılması deməkdir.**

"Türk diplomat Arıkana sinəsindən 14 güllə vuraraq, bununla da ürəyi soyumayıb ölmüş insanın başına yenidən güllələr çaxmışdır. Vəhşilik obrazı yaradan erməni terrorçunun azad olunması mümkün deyil. O, nəinki peşman olmayıb, əksinə, "bir türkü öldürdüyüm üçün kefim çox yüksəkdir", - deyə açıqlama verib. Amerikadakı erməni cəmiyyətləri bu terrorçunu sərbəst buraxdırmaq üçün 350 min dollar vəsait xərcləyiblər. Şərti azadlığın əsas tələbi odur ki, həmin şəxs məhbus həyatında peşmançılığı davranışları ilə açıq şəkildə hiss etdirsin.

Çıxarıldığı ilk məhkəmədəcə sərbəst buraxılan Sasunyan nə vaxt peçmançılıq hiss etdirib? Heç vaxt. O, bir dəfə erməni jurnalistə açıqlamasında demişdi ki, təəssüf hiss etməyəcək türk diplomatı öldürdüyü üçün, çünki vətəninə sadiqdir. Demişdi ki, nə vaxt azad olsa, yenə eyni addımı atacaq", - söyləyən S.Eğilməz qeyd edib ki, onlar - Atatürk Universitetinin müəllim və tələbələri olaraq bu haqsız şərti azadlıq qərarını pisləyirlər. Bununla bağlı ABŞ-ın Ədliyyə naziri Erik Holderə online məktublar göndərməyə də başlayıblar.

*✍ Vüsal Tağıbəyli*

Müsahib

***Vətən Müharibəsində hərbi qalibiyyətimiz regionun geosiyasi mənzərəsini dəyişsə də, ikili yanaşmalar davam edir. Ərazilərini işğaldan azad edən dövlət hərbi zəfərdən sonra diplomatik qələbəni təmin etməyə məcburdur. Bu, cəmiyyətdən güc birliyi tələb edir. Belə bir vaxtda partiyaların sərgilədiyi mövqe maraqla izlənir və çoxlu suallar yaranır. Partiyalar nə etməlidir, siyasi camea, bütövlükdə cəmiyyət hazırkı prosesdə nəyə diqqət etməlidir? Bu və digər məsələlərlə bağlı "Həftə içi"nə müsahibə verən Liberal Partiyasının sədri Əvəz Temirxan maraqlı nüanslara diqqət çəkib.***



Əvəz Temirxan,
Azərbaycan Liberal Partiyasının sədri

# Hərbi qələbəni diplomatik zəfərə çevirməliyik

***- Əvəz bəy, Vətən Müharibəsi başlayan ərəfədə Liberal Partiyası prosesi necə dəyərləndirdi?***

- O zaman proseslər çox sürətlə inkişaf edirdi. Prezident Aparatından mənə zəng gələndə sözüm bu oldu ki, belə bir vaxtda iqtidara dəstək vermək bocumuzdur. Demişdim ki, əgər partiyalar adından hansısa bəyanatı imzalamaq lazım gələrsə, Liberal Partiyasının imza hüququ sizdədir. Bildirmişdim ki, biz ordu-millət kimi müharibəyə getməliyik, ortada vahid komandanlığın olması qələbənin yarısıdır. Liberal Partiyası müharibədə özəl mövqe tutdu və öz fəaliyyətini müharibə şəraitinə uyğunlaşdırdı. Xalqın müharibəyə ozamankı münasibəti bizə enerji verdi. Müharibə başlayanda Liberal Partiyası bəyanat verdi və özünü Müdafiə Nazirliyinin bir qolu kimi təqdim etdi.

***- Bəs bu müharibə başlayanda Lalə Şövkət harada oldu, nə etdi?***

- Hər gün ünsiyyətdə idik. Bütün qələbələrə uşaq kimi sevinirdik. O vaxt devizimiz belə idi: bizim polad kimi bərkiyən, yumruq kimi birləşən vaxtımızdır. Məhz bunun nəticəsidir ki, Ermənistan təcavüzkarları Azərbaycanın dəmir yumruğunu öz başında hiss elədi.

***- Görünür, sizin partiya əvvəldən iqtidarlı olub, heç müxalifət olmadınız?***

- Yox, biz hökumətdə müxalifət idik. Heydər Əliyev hakimiyyətə gəlməzdən əvvəl, istər Heydər Əliyevi, istərsə İlham Əliyevi hələ SSRİ vər ikən müdafiə edirdim. Partiyamızın Prezident aparatı ilə ünsiyyəti var. Şadıq ki, torpaqlarımızın 17 faizi işğaldan azad edildi. Bizim qələbələrimizi xaricdə sevinc göz yaşları ilə qarşılayanlar var idi. Qürur duymalıyıq ki, Türkiyə kimi qardaş dövlətimiz var və bu əməkdaşlığı davam etdirmək lazımdır.

***- İqtidarla siyasi müxalifət partiyaları arasında yaranan dialoqu necə dəyərləndirirsiniz?***

- Əgər biz 40 pillələn qalxmalıyıqsa, bu, atılan ilk müsbət addımdır. İqtidarla müxalifət bir-birinə münasibətdə əksikliklərin mübarizəsi və vəhdəti fəlsəfəsindən yanaşmalıdır. İqtidar da, müxalifət də bir-biri ilə 44 günlük müharibənin leksikonu ilə danışmalıdır. Bir-birinə qarşı aşağılayıcı, haqsız tənqidə keçmək olmaz. Olan sözü demək lazımdır. Bu, iqtidara da aiddir, müxalifətə də. Bu mənada Liberal Partiya çalışır ki, bu barış naminə əlindən gələni eləsin.

***- Əvəz bəy, dediniz ki, görülən işlərin 40-cı pilləkəninin ilk pilləsindəsiniz. Hansı problemlərin həlli baş tutarsa, bu dialoq daha monolit, daha yaxşı olar?***

- Birinci, Konstitusiyada dəyişiklik etmək lazımdır. Proporsional seçki sistemini bərpa edib, seçkilər keçirmək lazımdır. Milli barış naminə barış parlamenti formalaşdırmaq lazımdır. Liberal Partiyası indi onlayn qaydada olsa da, beyin hücumu keçirir. Barış məsələsində Liberal Partiyanın heç kimin ağlına gəlməyən təklifləri var. Bütün umu-küsüləri kənara qoymalıyıq. Sən rəsulzadəçisən, sən nərimanovçusan, sən elçibəyçisən, sən əliyevçisən, sən müttəlibovçusan, vəzirovçusan sözü olmamalıdır. Biz hamımız azərbaycançı olmalıyıq.

Siyasi partiyalar dövlət tərəfindən maliyələşməlidir. Hansı partiyalar müəyyən kriminal qruplar və yaxud xaricdən maliyələşərlərsə, biz o partiyaların fəaliyyətinin qadağan olunması və məhdudlaşmasının tərəfdarı olarıq. Mənə belə gəlir ki, bu saat Azərbaycana qarşı hibrit müharibəsi gedir. Partiyaların maliyyələşməməsi bəzi partiyaları məcbur edir ki, dolayısı yollarla xarici ölkələrdən qrant alsın. Bu, Azərbaycan dövlətçiliyi, milli təhlükəsizliyi üçün ən böyük təhlükədir. İqtidar barış addımını atmalıdır. Məsələn, Prezidentin köməkçisi Ədalət Vəliyevin timsalında partiyalara müraciətə, görüşlər keçirməyi müsbət qarşılayıram. Bu, əməkdaşlıq üçün uzadılmış bir əldir. Bu barış əlini itələməyi, saya salmamağı, başqa bəhanələrlə görüşdən imtina eləməyi doğru saymıram. İqtidar heç nəyə baxmayaraq partiyalarla ünsiyyəti, məsləhətləşmələri davam etdirməlidir. Partiya ehtiyatda olan iqtidar deməkdir və dövlət suverenliyinin tərkib hissəsidir.

***- İqtidarın siyasi partiyalarla dialoqu bu cameədə nəyi dəyişdi?***

- Dəyişən odur ki, 50 partiya iqtidara dəstək oldu, qeyd-şərtsiz. Partiyalar müharibə dövründə iqtidara qeyd-şərtsiz dəstək verdiyinə görə bir sıra dövlətlər Azərbaycana qarşı tutduqları haqsız mövqedən geri çəkildilər. Ona görə də iqtidarla münasibətdə, bir-birimizi tənqid edəndə aşağılayıcı sözlərdən istifadə etməməliyik.

Dediyim kimi, proporsional seçki keçirilib, deputatların sayı artırılmalıdır. Deputatların səlahiyyət müddəti 4 ilə endirilməlidir, 2 ildən bir deputatların yarısı yenidən seçilməlidir. Barış parlamentində proporsional qaydada seçkiyə iqtidarla-müxalifət bir siyahıda gədə bilər. Mən M.Ə.Rəsulzadənin oğlu Rəis Rəsulzadəni Barış Parlamentinin sədri görmək istəyirəm. Orada hamının nümayəndəsi olmalıdır. Biz 2021-2025-ci ili barış ili elan eləməliyik.

***- Əvəz bəy, hərbi əməliyyatlardan sonra üçtərəfli bəyannamə qəbul olundu. Bilirik ki, bu bəyannamədən narazı olanlar var və hesab olunur ki, son torpağımız azad olunana qədər atəşkəs olmamalıydı. Erməni silahlıları qalır, sərhədlərimiz sülhməramlıların baxışı altındadır. Minalanmış ərazilərin xəritələri verilmir. Belə bir şəraitdə Azərbaycan hansı hüquqi haqqından istifadə etməlidir?***

- Həmin vaxt biz də bəyanat verdik ki, Rusiya sühməramlı qüvvələrinin Azərbaycan silahlı qüvvələri ilə Ermənistan silahlı qüvvələri arasında yerləşdirilməsi Azərbaycan üçün böyük təhükə yarada bilər və yaradır da. Biz bundan çox narahatıq. Buna görə də bir-birimizi xəyanətdə ittiham etmək yox, hərbi qələbəni yüz faizlik diplomatik qələbəyə çevirməyi düşünməliyik. Çəkici yenidən bir yerə vurmalıyıq. Təsəvvür edirsiniz, bu gün Şuşa azaddır, Azərbaycan əsgəri Şuşadadır!.. Bu, bütöv Azərbaycan deməkdir. Hazırda orada bir ölkənin də sühməramlısı, 10 ölkənin də sülhməramlısı olsa, Dağlıq Qarabağın hüquqi statusunun Azərbaycanın nəzarətindən çıxmasına təhlükə yarada bilər. Hesab edirəm ki, biz Türkiyə-Azərbaycan münasibətlərini möhkəmləndirməliyik.

Prezident 26 fevralda mətbuat konfransındakı çıxışında bunu ifadə elədi. Azərbaycan danışıqlarda Laçın dəhlizindəki 5 kilometr əraziyə Azərbaycan əsgərlərinin nəzarət etməsinə nail olmalıdır. Orada Azərbaycan gömrüyü durmalıdır. Çalışmaq lazımdır ki, Türkiyənin hərbi müşahidəçiləri ruslarla, azərbaycanlılarla birlikdə orda dursun və gəlib-gedən ermənilərə nəzarət etməlidir. Rusiya görməlidir ki, onun təhlükəsizliyinə Türkiyə və Azərbaycanla əməkdaşlıq daha çox cavab verir, nəinki Ermənistanla. Biz bölgədə Zəngəzur, İrəvan respublikasının statusunu gündəmə gətirməliyik. Onu dünyada tanıtmalıyıq. Onun prezidentinin seçkilərini keçirməliyik. Orda İrəvan xanlığının bayrağı olmalıdır.

***- Əvəz bəy, ermənilər yenə də müharibə ritorikası ilə danışır, torpaqları işğal etmək fikirlərindən əl çəkmirlər. Üstəlik, torpaqlarımız dağıdıb, tar-mar edilib. Bu faktların hesabı beynəlxalq məhkəmələrdə nə vaxt soruşulacaq?***

- Prezidentin nəzarəti ilə ən yaxşı hüquqşünaslar cəlb olunaraq faktaraşdırıcı komissiya yaradılmalıdır. Ermənistandan təzminat tələb olunmalıdır. Məhkəmədə 1 manat da udsaq, bizim xeyrimizədir.

Bütün xaraba qalmış rayonlarda dağıdılmış bir evi də bərpa etmək lazım deyil, məscidlərdən başqa. Bütün xarabalıqlar olduğu kimi qalmalıdır. O həyətdə ev tikmək olar, amma o xarabalıqdan bir parça saxlanmalıdır ki, yeni nəsil görsün ermənilər vandallığını. Biz Qarabağ müharibəsini tam bitirməmişik. "Qarabağ Azərbaycandır", - deyəndə qarşısında 1 nida qoymuşuq. Onun qarşısına daha 2 nida qoyulmalıdır. Biz xarabalıqları saxlamalıyıq. Kür-Araz qovşağı, Qazaxdan tutmuş Beyləqana, Naxçıvana qədər xüsusi iqtisadi zona yaradılmalıdır. Orada Azərbaycan kapitalından vergi tutulmamalıdır. 20-25 il ərzində orda Milli Burjuaziya formalaşmalıdır. İnsanlar qayıdış üçün həvəsləndirilməlidir. Yeri gəlmişkən, deyim ki, Füzulidə və Laçında beynəlxalq aeroportun tikintisini alqışlayıram. Beynəlxalq aeroport həm də hərbi baza deməkdir. Bu, qayıdışı gücləndirə bilər. Bütün bunların kökündə milli barış, barış parlamenti durmalıdır. Hakimiyyətn icra qolu yox, qanunverici qolu nəzarətedici gücü olmalıdır. O, xalqın iradəsini əks etdirməlidir. Dünyanın bütün ölkələrində hər 1 milyon əhaliyə bir koordinatoru muz olmalıdır. Müslüm Maqomayevlər, Lütfü Zadə-lər yetişdirilməlidir. Bir tezis olmalıdır, "didişən namərdir".

***- "Malıdır, məlidir" deyiriksə, bu, problemlərin çoxluğundan xəbər verir. İndiki bu durum nə dərəcədə Azərbaycanın xeyrinədir?***

- Hələlik, Qarabağ bizim nəzarətimizdə deyil. Onun üçün də biz didişmələrə son qoymalıyıq. İkincisi, köklü islahatlara getmək lazımdır. Biz özümüzü ordu-millət kimi yetişdirmək üçün qanunverici baza yaratmalıyıq. Hamımız əsgər olmalıyıq. Hər kəs öz hərbi hissəsini bilməlidir, müxalifət nə edəcəyini bilməlidir, dinc əhaliyə hər rübdə bir dəfə hərbi təlim keçirilməlidir. Vətəndaşlarımız özlərini müharibədə necə aparmağı bilməlidir. Hər kəs öz yerində bir Atatürk olmalıdır.

***- Bu ərəfələr bizim diasporalarımızın üzərinə nə düşür, nə etməlidir? Rusiya ilə sıx əməkdaşlığımız, əlaqələrimiz olduğu halda, niyə orada lobbiçilik, güclü diasporamız qurulmur?***

- Ağaoğlu demiş, biz azərbaycanlılar bir-birinin ayağından çəkir. Dövlət öz vətəndaşlarına dayaq durmaldır. Azərbaycanın Rusiyada böyük potensialı var. Ölkəmizin Rusiyadakı "yumşaq gücü" Ermənistandan çoxdur, amma mütəşəkkil deyil.

***- Erməni milyonçuları təkcə bir "yan" sonluğu ilə bütün pullarını erməni faşizminə xərcləyir. Bizimkilər bunu niyə etmir? Hər şeyi dövlətin üzərunə yükləmək nə dərəcədə doğrudur?***

- Bir hüquqşünas kimi, dövlət sözünə fərqli baxıram. Dövlət xalqın özüdür. Dövlət siyasi cəhətdən təşkilatlanmış xalqa deyilir. Hacı Zeynalabdin Tağıyev adına orden, medal olmalıdır. Prezidentin, xalqın, parlamentin nəzarətində olan Azərbaycan fondu yaradılmalıdır. Az-çox lobbiçilərimiz var. Onun da bünövrəsi qoyulur. Azərbaycanlılar Rusiyada kütləvi şəkildə çox xoşagəlməz halda yaşayır. 90 faiz gənc evsiz, işsizdir, bəzən cinayət törətməyə məcbur olurlar.

***- Niyə ordakı pullu həmyerlilərimiz, diasporalar o gəncləri toplamır, onlara dəstək durmur?***

- Bunu səfirlik eləməlidir. Bizim Rusiyadakı səfir hesab edirəm ki, ictimai təsir baxımından yüksək səviyyədədir. Səfirimiz Rusiya xalqının sevdiyi şəxsdir. O, diplomat deyil. Biz ona nə etməli olduğu barədə tezislər verməliyik...

✍ *Tahirə Qafarlı*

> “ *Partiyaların maliyyələşməməsi bəzi partiyaları məcbur edir ki, dolayısı yollarla xarici ölkələrdən qrant alsın*

> “ *Azərbaycan danışıqlarda Laçın dəhlizindəki 5 kilometr əraziyə Azərbaycan əsgərlərinin nəzarət etməsinə nail olmaldır*

> “ *Füzulidə və Laçında beynəlxalq aeroportun tikintisini alqışlayıram*

# "Qalib Azərbaycan böyük qayıdışa hazırlaşır"

**Yaponiyanın nüfuzlu JIJI PRESS agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 26-da yerli və xarici KİV-lər üçün keçirdiyi mətbuat konfransı barədə analitik məqalə yayıb.**

Agentliyin İstanbul müxbiri Ryo Yoşiokanın müəllifi olduğu ”Qalib Azərbaycan böyük qayıdışa hazırlaşır” adlı məqalədə Azərbaycan Prezidentinin 4 saatdan artıq davam edən mətbuat konfransı barədə ətraflı məlumat verilir. Bildirilir ki, Xocalı soyqırımının 29-cu ildönümündə keçirilən mətbuat konfransında Prezident İlham Əliyev jurnalistlərin suallarını Azərbaycan, türk, rus və ingilis dillərində tərcüməçilərə ehtiyac duymadan cavablandırıb. Yazıda ermənilərdən fərqli olaraq, doğma torpaqlarına qayıdacaq azərbaycanlıların bütün çətinliklərə baxmayaraq, onlarla birgə yaşamağa hazır olduğu qeyd edilir.

Azərbaycan Prezidentinə istinadla iki xalqın birlikdə yaşamasının mümkün olduğu vurğulanır. Bildirilir ki, münaqişə zonasında rus sülhməramlılarının yerləşdirilməsi tərəflər arasında baş verə biləcək hər hansı qarşıdurmanın mümkünlüyünü aradan qaldırır. Yazıda aparılan bərpa işlərində Türkiyə şirkətlərinin iştirakına da xüsusi diqqət yetirilib.

# Avropa şirkətləri Azərbaycanda fəaliyyətini davam etdirmək niyyətindədir



**“Aİ Biznes Mühiti Hesabatı 2020” 5-ci nəşrinin təqdimatı keçirilib. İqtisadiyyat Nazirliyindən hafta.az-a verilən məlumata görə, onlayn formatda təşkil olunan tədbirdə Azərbaycanın rəsmi şəxsləri, beynəlxalq təşkilatların nümayəndələri və sahibkarlar iştirak ediblər.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov ölkəmizin Avropa İttifaqı (Aİ) ilə əlaqələrə xüsusi önəm verdiyini diqqətə çatdırıb, Azərbaycan iqtisadiyyatının genişlənməsinə və şaxələndirilməsinə yönəlmiş sistemli tədbirlərin həyata keçirilməsində beynəlxalq təcrübənin tətbiqi baxımından Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi ilə əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Nazir tərəflər arasında münasibətlərin artan dinamikasında qarşılıqlı səfərlərin, yüksək səviyyəli görüşlərin mühüm əhəmiyyətini qeyd edib. Bildirilib ki, Aİ Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır. 2020-ci ildə ticarət dövriyyəsi 9,33 milyard ABŞ dolları təşkil edib. Son 8 ildə Aİ ölkələrinin Azərbaycana yatırdığı investisiyaların ümumi həcmi 20 milyard dollardan çoxdur.

COVİD-19 pandemiyasının Azərbaycan iqtisadiyyatına təsirindən bəhs edən iqtisadiyyat naziri bu təsirlərin minimallaşdırılması istiqamətində həyata keçirilən sosial-iqtisadi və maliyyə dəstəyi tədbirləri, həmçinin iqtisadiyyatın liberallaşdırılması istiqamətində görülən işlər, əlverişli biznes və investisiya mühiti, birbaşa xarici investisiyaların təşviqinə dair strategiya və s. barədə məlumat verib. Mikayıl Cabbarov Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qələbəsini vurğulayaraq, işğaldan azad olunmuş torpaqlarımızda yeni infrastruktur və tikinti layihələrinin həyata keçirilməsinin əsas vəzifələrdən olduğunu, investisiya qoyuluşu üçün geniş imkanlar yaradılacağını bildirib, təşkilata üzv olan ölkələri reallaşdırılacaq layihələrdə əməkdaşlığa dəvət edib. Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas Azərbaycan ilə Aİ arasında əlaqələrdən danışıb, tərəfdaşlığın genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb.

İclasda həmçinin, “Azərbaycan 2020: Aİ biznes mühiti” hesabatının təqdimatı keçirilib, ekspertlərin rəyləri dinlənilib. Hesabata əsasən, Azərbaycanda təmsil olunan Aİ ölkələri şirkətlərin 80%-dən çoxu iqtisadi fəaliyyət üçün yenidən ölkəmizi seçmək niyyətini bildiriblər. Bununla yanaşı, Avropa şirkətlərinin 75%-i pandemiyanın təsirlərinin minimallaşdırılması üçün həyata keçirilən dövlət dəstəyi tədbirlərindən tam razı qaldıqlarını ifadə ediblər. Avropa şirkətləri həmçinin, Azərbaycanın işğaldan azad olunmuş əraziləri üzərində Hökumət nəzarətinin bərpa edilməsinin həm əhali, həm də ölkə iqtisadiyyatı üçün əhəmiyyətini vurğulayıblar. Sonda iqtisadi əlaqələrin genişləndirilməsi, birgə layihələrin həyata keçirilməsi imkanları barədə müzakirələr aparılıb, suallar cavablandırılıb.

# Azərbaycan və Ermənistan konstruktiv yanaşma nümayiş etdirir



***“Rusiya, Azərbaycan və Ermənistan Baş nazirlərinin müavinlərinin sədrliyi altında üçtərəfli işçi qrupu çərçivəsində Bakı və İrəvan konstruktiv yanaşma nümayiş etdirir”. Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariyza Zaxarova brifinqdə bildirib.***

M. Zaxarova üçtərəfli işçi qrupun əsas vəzifəsinin regionun bütün iqtisadi və nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı yüksək səviyyədə əldə olunan razılaşmaları həyata keçirməkdən ibarət olduğunu xatırladıb: “Ümid edirik ki, müsbət istiqamətlənmiş bu niyyət Azərbaycan və Ermənistanın rəsmi şərhlərində və media məkanında da üstünlük təşkil edəcək”. “Azərbaycanda keçirilməsi planlaşdırılan təlimlər regionda sabitliyə və təhlükəsizliyə risklər yaratmır”. Mariya Zaxarova erməni jurnalistin martın 15-də Azərbaycanda keçirilməsi planlaşdırılan hərbi təlimlərin Qarabağla bağlı üçtərəfli bəyanatın icrasına təhlükə yaratması ilə bağlı sualına cavabında bildirib. “Hərbi təlimlər, adətən, bütün Cənubi Qafqaz ölkələri tərəfindən keçirilir. Bu təlimlər müntəzəm əsasda keçirilir və müvafiq məlumatlar maraqlı tərəflərə vaxtında çatdırılır. Bizdə olan məlumatlara görə, Azərbaycandakı hərbi təlimlər planlı xarakter daşıyır və qoşunların döyüş hazırlığının yüksəldilməsinə istiqamətlənib. Təlimlər regionda sabitliyə və təhlükəsizliyə risklər yaratmır", - deyə Rusiya XİN rəsmisi vurğulayıb.

Qeyd edək ki, Müdafiə Nazirliyinin məlumatında bildirilir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən martın 15-dən Azərbaycan Ordusunda qoşun (qüvvə) növlərinin cəlb edilməsi ilə əməliyyat-taktiki təlimləri keçiriləcək. Müdafiə nazirinin rəhbərliyi ilə keçiriləcək təlimə 10.000 nəfərədək şəxsi heyət, 100-dək tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 30-dək hərbi aviasiya və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunacaq.

Dağlıq-meşə və çətin relyefli ərazilərdə keçiriləcək təlimlərdə Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınmaqla əsas diqqət qoşunların idarəolunması, döyüşə hazırolma vəziyyətinə gətirilməsi və yenidən qruplaşması, o cümlədən ümumqoşun birlikləri, Raket və Artilleriya Qoşunları, aviasiya, Xüsusi Təyinatlı Qüvvələr arasında döyüş uzlaşması və qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsinə yönəldiləcək. Martın 18-dək davam edəcək təlimlərdə qoşunlar terrorçu dəstələr (qruplar), həmçinin qanunsuz silahlı qruplaşmalar ilə mübarizə və anti-terror əməliyyatları üzrə tapşırıqları icra edəcək.

# Məktəbdə aqressiya-bullinq

## Layihə

**Məlum olduğu kimi, bir neçə gün öncə Abşeron rayonu, Qobu qəsəbə 2 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdləri 2005-ci il təvəllüdlü Quliyeva Mətanət Elşən qızı və 2004-cü il təvəllüdlü Səmədova Əfruz Rafiq qızı faciəvi şəkildə həyatlarını itiriblər. Qeyd edək ki, hadisə ilə bağlı müxtəlif versiyalar səsləndirilir və hazırda məsələ ətrafında hüquq-mühafizə orqanları tərəfindən müvafiq araşdırmalar davam etdirilir. Bəs, görəsən, bu kimi hadisələrin baş verməməsi üçün təhsil müəssisələrində psixoloqların sayı artırılmalıdırmı? Ümumiyyətlə, bu gün təhsil müəssisələrində psixoloq işinin təşkili hansı səviyyədədir?**

**■ Mövzu ilə bağlı Azərbaycan Respublikası Təhsil İnstitutunun Strateji təhsil tədqiqatları və inkişaf layihələrinə rəhbərlik edən aparıcı elmi işçisi Könül Abaslı bildirib ki, dövləti, aidiyyəti qurumları və cəmiyyəti intihar və onun səbəbləri dərindən narahat edir:** "İntihar davranışına səbəb ola biləcək risk faktorlarının müəyyən edilməsi intiharların qarşısını almaqla əlaqəli həyata keçiriləcək təhlillərə istiqamət verməklə və risk qruplarına müdaxilə etmək nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb edir. Özünə sui-qəsd cəhdlərinin və intihar prosesinin səbəbləri haqqında tam olaraq hamı tərəfindən qəbul edilən bir səbəb və izahat olmasa da müxtəlif faktorların təsiredici rolu haqqında geniş müzakirələr mövcuddur. Amerika Uşaq və Yeniyetmələr Psixiatriya Akademiyası tərəfindən təqdim edilən məlumatlara 15-24 yaş arası uşaqlar, yeniyetmələr və gənc yetkinlərin ölümünə səbəb olan ikinci faktor kimi intihar göstərilir.

İntihar etməyə cəhd göstərən uşaq və yeniyetmələrin əksəriyyətində xüsusilə depressiya kimi ruhi xəstəliklərin mövcudluğu qeyd olunur. Həmçinin, COVID-19 pandemiyası dövründə təhsil və digər fəaliyyətlərlə bağlı məhdudiyyətlərin yaranması, evdə yaranan gərginlik və izolyasiya kimi səbəblər məktəblilər arasında intiharların artmasına səbəb ola biləcək faktorlar qismində qiymətləndirilir".

### Kiberzorakılıq intihara sürükləyir

**Onun sözlərinə görə, son zamanlarda müşahidə olunan intihar hadisələrində kiber zorakılıq da səbəblərdən biri olaraq vurğulanıb:**

"Uşaq və yeniyetmələrin kiber zorakılığa məruz qalmasının intihar düşüncəsini və təşəbbüsünü artırdığı qeyd olunub. Son aylarda Azərbaycanda məktəblilərin rəqəmsal texnologiyalardan və sosial şəbəkələrdən istifadəsi ilə bağlı aparılmış genişmiqyaslı bir tədqiqat nəticəsi onların bir qisminin kiber zorakılığa meyilli olduqlarını, bir qisminin isə kiber zorakılığa məruz qaldıqlarını göstərib. Əlavə olaraq sorğuda iştirak edən məktəblilərin ən az 22 faizi internetdə narahatedici bir situasiya ilə, yəni kiber zorakılıq ilə qarşılaşdığı zaman bu vəziyyəti heç kimlə paylaşmadığını ifadə edib. İnternetdən istifadənin sərhədlərinə nəzarətin çətin olduğu bir dövrdə məktəblilərə hansı halların kiber zorakılığın göstəricisi olub-olmadığı barədə məlumat verilməsi mühümdür. Həmçinin, onların kiber zorakılıqdan necə qorunmağın mümkünlüyü və kiber zorakılıq ilə qarşılaşdıqları zaman mövcud durum ilə necə mübarizə apara biləcəkləri, dəstək üçün kimlərə müraciət edə biləcəkləri mövzusunda maarifləndirilməsi böyük əhəmiyyət kəsb edir.

Bu işdə ən əsas öhdəlik isə valideyn və müəllimlərin üzərinə düşür. Vəziyyət ilə əlaqəli mübarizə məktəb-müəllim-valideyn üçbucağında aparılmalıdır. Həm müəllimlər, həm də valideynlər məktəblilərin virtual aləmdə təhlükəsizliyini təmin etmək üçün onlara lazımi bilik və bacarıqları aşılamaq işini qarşılıqlı əməkdaşlıq formasında həyata keçirməlidir".

*Ekspertlər hesab edirlər ki, şagirdlərin psixoloji durumunun gərginləşməsinə virtual məkana qapanma ciddi təsir göstərir*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması



### Gənclərin psixoloji problemlərinə həsr olunan vebinar təşkil ediləcək

**■ Təhsil İnstitutunun Elmi-pedaqoji tədqiqatlar mərkəzinin direktoru İlham Cavadovun verdiyi məlumata görə isə hazırda Təhsil İnstitutu UNICEF ilə birgə "Böhran vəziyyətlərində məktəbdə ilkin psixoloji yardım bacarıqları" adlanan layihəni icra edir:**

"Layihə uşaq və yeniyetmələr arasında müxtəlif psixi travmaların, qloballaşmanın mənfi təsirlərinin yaratdığı deviant davranış və suisid meyllərinin aradan qaldırılması yönündə məktəb psixoloqlarının şagird, müəllim və valideynlərlə aparmalı olduqları maarifləndirmə, profilaktika, diaqnostika, korreksiya, reabilitasiya və s. işlərin təşkili sahəsində bacarıqlarının formalaşdırılmasına istiqamətlənib. Aparılmış araşdırmalar nəticəsində müəyyənləşdirilib ki, uşaq və yeniyetmələrin özünə qəsd etməsinin səbəb və motivləri müxtəlifdir. Uşaq və yeniyetmələr bu yolla valideynlərinin, müəllimlərinin və yaxınlarının diqqətini öz problemlərinə yönəltməyə cəhd göstərir. Azərbaycan Respublikasının Təhsil İnstitutu (ARTİ) gənclərin psixoloji sağlamlığının qorunması və bu sahədə maarifləndirmə işlərinin mütəmadi həyata keçirilməsini daim diqqətdə saxlayır. Bu istiqamətdə göstərilən fəaliyyətin davamı olaraq ARTİ 15 mart 2021-ci il tarixində, saat 19:00-da "Gənclərin psixoloji problemlərinin yaranmasına cəmiyyətin təsiri" adlı vebinar təşkil edəcək. Trabzon Dövlət Universitetinin müəllimi Dos. Dr. Mehmet Palancı vebinarda qonaq məruzəçi qismində çıxış edəcək. Mehmet Palancı, həmçinin MEM Psixologiya Mərkəzinin həmtəsisçisi və psixoloqu, Uşaq və Gənclərin Problemlərinin Araşdırılması Dərnəyinin qurucusudur. O, Karadeniz Texniki Universitetində Məsləhətçi psixoloq ixtisası üzrə doktorantura təhsili alıb. Gənc nəslin psixoloji cəhətdən sağlam yetişdirilməsi istiqamətində bir sıra araşdırma və təhlillərin müəllifi olan spiker vebinar zamanı uşaq və gənclərə psixoloji dəstəyin əhəmiyyəti, onların psixoloji vəziyyətinin və problemlərinin mənşəyinin müəyyən olunması, valideynlərin və cəmiyyətin bu prosesdəki rolu haqqında ətraflı məlumat verəcək. Türk dilində keçiriləcək tədbirdə iştirak üçün məhdud sayda yer mövcuddur. İştirak etmək üçün 13 mart 2021-ci il tarixinədək bu linkdən qeydiyyatdan keçməyiniz xahiş olunur: https://bit.ly/2OJb5sw".

### Profilaktik tədbirlər kompleks şəkildə aparılmalıdır

**■ Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini Nadir İsrafilov bildirib ki, əslində intihar hallarını bilavasitə məktəblə, təhsil müəssisələrində psixoloji işin təşkili ilə əlaqələndirmək düzgün mövqe sayıla bilməz:** "Bu hal təkcə bizim deyil, bütün dünyada müasir dövrün aktual problemlərindən biridir. Rəsmi statistikaya görə hər il 1 milyondan artıq insan özünə qəsd edir. İntihar edənlər arasında azyaşlılar da var, orta yaşlılar da, ahıllar da, imkanlılar da, imkansızlar da, psixi pozğunluğu olanlar da, tam normal sağlamlığa malik olanlar da. Əlbəttə, bütün bu sadaladıqlarım və sadalanmayan məqamlar heç də məktəbin məsuliyyətini, təhsil müəssisələrində psixoloji xidmətin təşkilini diqqəti azaltmaq anlamına gəlmir. Vəziyyət hər kəsi narahat etməli, bu kimi hadisələrin baş vermə səbəbləri barədə ciddi düşündürməli, profilaktik tədbirlər kompleks şəkildə aparılmalıdır. Son hadisələrlə bağlı Nazirin də qeyd etdiyi kim şagirdlərin akademik nailiyyətləri ilə yanaşı onların psixoloji sağlamlığı, təhlükəsizliyi və rifahı da vacib məsələdir.

Ailədaxili münasibətlər, müəllimlərin, məktəb psixoloqlarının və məktəb rəhbərlərinin şagirdlərlə qurduğu ünsiyyət, öyrənənlərin dərsdənkənar məşğələlərə və könüllülük fəaliyyətinə cəlb edilməsi, eləcə də, şagirdlərarası münasibətlərin düzgün qurulması mühüm şərtdir. Heç şübhəsiz ki, bu kimi halların çoxalmasına pandemiyanın yaratdığı virtual məkana qapanma da təsirsiz ötüşməyib. Baxmayaraq ki, ötən ilin aprelin 6-dan etibarən Təhsil Nazirliyinin 146-3 "qaynar xətt" xidməti fəaliyyətə başlayıb. Belə ki, koronavirus infeksiyası ilə əlaqədar ölkəmizdə karantin rejimi elan olunduğuna görə evdə qalan şagirdlər, eləcə də bütün vətəndaşlar mənəvi-psixoloji dəstəyə ehtiyac duyduğu hallarda sözügedən "qaynar xətt" xidmətindən yararlanma imkanı əldə ediblər ki, bu zaman müraciət edən şəxslərə psixoloji dəstək göstərilib, onlara tövsiyələr verilib".

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbulundan sonra bu sahəyə də xüsusi diqqət yetirilməsi və bu istiqamətdə müəyyən işlər görülməsinə baxmayaraq, istənilən halda ümumtəhsil məktəblərində psixoloji işin təşkilinə və məktəb psixoloquna baxış bucağımız və yanaşma tərzimiz bir daha dəqiqləşdirilməlidir:

"Bu gün bizim bu vaxta qədər göstərdiyimizdən daha artıq birlik, həmrəylik, mütəşəkkillik və anlayış göstərməyimiz, gələcəyimiz olan yeniyetmə və gənclərimizin taleyinə, həm də ümumxalq işi, ümummilli məsələ kimi yanaşmağımız zamanıdır.

Bu gün, bir vaxtlar ehtiyac hiss etmədiyimiz, lazımı əhəmiyyət vermədiyimiz təhsilalma formalarına, dünya təcrübəsində tətbiq olunan mütərəqqi metodlara diqqəti artırmaq, istənilən təzyiq və aqressiv davranışların, həm fiziki, həm psixoloji formada baş verən "Bullinq" adlandırdığımız həm fiziki, həm psixoloji əsasən təhqir, hədə, fiziki aqressiya, alçaldılma formalarında baş vermə hallarına hazır olmaq üçün yeni axtarışlara çıxmaq zamanıdır. Bu kimi halların mövcudluğu və son illərdə artım tendensiyası onunla fəal və kollektiv mübarizə tələb edir".

✍ Sevinc

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*



## Layihə

**Azərbaycanda Aliment Fondunun yaradılması yenidən gündəmə gəlib. Belə ki, Ombudsman Aparatı Aliment Fondunun yaradılmasının təklifi ilə çıxış edib. Bu barədə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2020-ci il üzrə məruzəsində bildirilib.**

# Aliment Fondunun yaradılması yenidən gündəmdə

## Azərbaycanda belə bir Fondun yaradılması nə dərəcədə məqsədəuyğundur?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Qeyd olunub ki, uşağın saxlanılması üçün məhkəmənin təyin etdiyi alimentin dövlət tərəfindən (sonradan borcludan məcburi qaydada alınması şərti ilə) ödənilməsi üzrə mexanizmi (Aliment Fondunun) yaradılmalıdır.

Xatırladaq ki, bu məsələ ötən illərdə də dəfələrlə gündəmə gətirilib. Həm Ombudsman illik məruzələrində, həm Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, həm də millət vəkilləri parlamentdə ayrı-ayrı vaxtlarda Aliment Fondunun yaradılması təşəbbüsü ilə çıxış ediblər. Amma bütün bunlara baxmayaraq sözügedən Fondun yaradılması məsələsi indiyədək yubanır.

Bəs, görəsən, Azərbaycanda Aliment Fondunun yaradılması məqsədəuyğundurmu? Dünya təcrübəsində bu Fondlar hansı formada fəaliyyət göstərirlər?

### Alimentin miqdarı nə qədərdir?

**Əvvəlcə ondan başlayaq ki, Ailə Məcəlləsinə əsasən, valideynlər uşaqlarını saxlamağa borcludurlar. Bu vəzifədən irəli gələrək, Ailə Məcəlləsinin 78-ci maddəsi uşaqların saxlanması üçün alimentin sabit pul məbləğində tutulması qaydasını müəyyənləşdirir.**

Belə ki, Ailə Məcəlləsinə əsasən aliment ödənilməsi barədə razılıq olmadıqda uşaqlar üçün onların valideynlərindən məhkəmə tərəfindən hər ay aşağıdakı miqdarda aliment tutulur:

- 1 uşağa görə-qazancın və (və ya) valideynlərin başqa gəlirlərinin dörddə bir hissəsi;
- 2 uşağa görə-qazancın (başqa gəlirlərin) üçdə bir hissəsi;
- 3 və daha çox uşağa görə-qazancın (başqa gəlirlərin) yarısı.

Bu payların miqdarı məhkəmə tərəfindən tərəflərin ailə və maddi vəziyyəti, eləcə də diqqətəlayiq olan başqa hallar nəzərə alınmaqla azaldıla və artırıla bilər. Valideynlər arasında yetkinlik yaşına çatmayan uşaqlara aliment ödənilməsi barədə saziş yoxdursa, eləcə də aliment verməyə borclu olan valideynin qazancı (gəliri) qeyri-müntəzəm, dəyişən olarsa, ya qazancın (gəlirin) hamısını və ya bir hissəsini həmin valideyn natura və ya xarici valyuta ilə alırsa, yaxud onun qazancı və ya sair gəliri yoxdursa, habelə alimentin valideynin qazancından (gəlirindən) müəyyən hissə kimi tutulması mümkün olmadığı, çətinlik törətdiyi və tərəflərdən birinin və ya marağının əhəmiyyətli dərəcədə pozulduğu başqa hallarda, uşaqların saxlanması üçün vəsait tutulmasını tələb edən şəxsin xahişi ilə alimentin miqdarı məhkəmə tərəfindən hər ay ödənilməli olan sabit pul məbləğində və ya eyni zamanda həm sabit pul məbləğində, həm də qazancın (gəlirin) müəyyən hissəsi kimi müəyyən edilə bilər.

### Dünya təcrübəsində aliment fondları

**Məlumat üçün bildirək ki, dünyanın əksər ölkələrində Aliment Fondları fəaliyyət göstərir.**

Hətta iqtisadi cəhətdən inkişaf etmiş bir sıra ölkələrdə borclu tərəfindən aliment ödənilmədiyi təqdirdə uşağın saxlanılması yükünü dövlət öz üzərinə götürür. Məsələn, Norveçdə bu funksiyanı Milli Sığorta Agentliyi, Niderlandda Alimentlər üzrə Federal Büro, Polşada Aliment Fondu, Fransada Dövlət Aliment Fondu yerinə yetirir. Yəni, borclu alimenti ödəməkdən yayındığı təqdirdə dövlət müvafiq ödənişləri onun əvəzinə edir. Əslində dövlətin bu addımı borclunu aliment üzrə öhdəlikdən azad etmir. Çünki tələbkar şəxs digər ilə əvəz olunur və ödəniş aparıldıqdan sonra dövlət orqanı aliment məbləğini borcludan məcburi qaydada tutur və bununla da dövlət öz üzərinə müvafiq vəsaitləri tələb etmək funksiyasını götürür.

Qeyd edək ki, əksər ölkələrdə boşanmış ailələrdə uşaqların yaranmış yeni situasiyadan daha az zərər görməsi üçün müvafiq qanunvericilik bazası da təkmilləşdirilib. Məsələn, Latviyada alimentlərin ödənilməsi işini tənzimləyən qanunvericilikdə köklü islahatlar həyata keçirilib, o cümlədən Aliment Fondu təsis edilərək bu sahədə səmərəli icra mexanizmləri tətbiq olunub. Latviya Respublikasının Uşaqlar və Ailə İşləri üzrə Nazirliyin təşəbbüsü ilə "Saxlanılma xərclərinin təminatları fondu haqqında" Qanun qəbul edilib, həmin nazirliyin bilavasitə tabeliyində olan Uşaqların saxlanılması xərclərinin təminatları Fondu yaradılaraq fəaliyyət başlayıb. Fondun məqsədi məhkəmə qərarları əsasında alimenti ödəməyə borclu olan valideyndən yardım almayan və bu səbəbə görə digər valideyni tərəfindən saxlanılan uşaqlara minimal saxlanılma xərclərinin ödənilməsi ilə onların sosial təminat almaq hüququnun təmin olunmasıdır. Qonşu Rusiyada da uşaqların hüquqlarının qorunması, o cümlədən aliment öhdəliklərinin effektiv icrasının təmin etmək məqsədi ilə zəruri hüquqi baza yaradılmaqla yanaşı mövcud qanunvericiliyə irimiqyaslı dəyişikliklər edilib.

### Həm müsbət, həm mənfi nəticələr ortaya çıxa bilər

**■ Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın sədri, hüquqşünas Sahib Məmmədov aliment məsələsinin kifayət qədər aktual problemlərdən biri olduğunu vurğulayıb:**

"Bu məsələ ilk dəfə deyil ki, gündəmə gətirilir. Ailələrdə boşanmalardan sonra alimentlərin verilməsi ilə bağlı xeyli məhkəmə qərarları olur: Məhkəmələr uşaqların mənafeyini müdafiə etmək üçün qarşı tərəfdən aliment verməsini tələb edirlər. Təəssüflər olsun ki, hazırda alimentin verilməsi ilə bağlı çıxarılan qərarların icrası çətin olur. Borclular bir çox hallarda biləərəkdən məhkəmə qərarı ilə müəyyən olunan vəsaiti ödəməkdən yayınırlar, işləmədiklərini, pullarının olmadığını iddia edirlər. Bu baxımdan ölkədə dəfələrlə Aliment Fondunun yaradılması gündəmə gətirilib. Ombudsmanın Aliment Fondunun yaradılmasının zərurət olması ilə bağlı rəyi də buna əyani sübutdur. Əslində, bəzi ölkələrdə bu cür fondlar var. Hansı ki, onların bəzisində bu yükü dövlət üzərinə götürür və fond aliment üçün gərəkli vəsaiti ödəsə də, daha sonra bu borcu alimenti ödəməli olan valideyndən geri alır. Bu fondun yaradılması o halda mümkündür ki, bunun üçün yetərincə büdcə vəsaiti mövcuddur. Bu o demək deyil ki, dövlətin bu Fondu yaratmağa vəsaiti yoxdur. Əslində vəsait var. Burada əsas söhbət Fondun necə idarə olunmasından gedir. Tutaq ki, dövlət bu Fondu yaratdı və 15-20 milyon vəsait də ayırdı. Həmin vəsait 1-2 il aliment kimi ödənildi. Bəs, dövlət həmin şəxslərin əvəzinə aliment verdiyi vəsaiti kimdən geri alacaq? Hesab edirəm ki, bu kimi məsələlər dəqiqləşdirilməlidir. Digər tərəfdən, Aliment Fondu yaradılarkən bunun əhatə dairəsi müəyyənləşdirilməlidir. Məlum məsələdir ki, aliment təkcə ər-arvad münasibətlərindən yaranan məsələ deyil. Alimenti təkcə kişi ödəmir, alimentin ödəyicisi qadın da, övlad da ola bilər. Tutaq ki, boşanma prosesindən sonra uşaq ata ilə qala bilər, qadın yenidən ailə qura bilər, bu zaman alimentin ödəyicisi qadın olur. Başqa bir məsələ övladın valideynə aliment ödəməsi ilə bağlıdır. Yəni, alimentin əhatə dairəsi kifayət qədər genişdir. Aliment Fondu yaradılarkən mütləq bu məsələlər dəqiqləşdirilməlidir".

**Ekspert rəyi...**

**■ Məsələyə münasibət bildirən Konsitutisiya Araşdırmaları Fondunun rəhbəri Əlimməmməd Nuriyevin fikrincə, bu fondun yaradılması o halda mümkündür ki, bunun üçün yetərincə büdcə vəsaiti mövcuddur:**

"Aliment Fondunun yaradılmasının həm müsbət, həm də mənfi nəticələri ola bilər. Bu, "İctimai Fond" ola bilməz. Bu, o zaman "İctimai Fond" ola bilər ki, ayrı-ayrı şəxslər könüllü şəkildə bu fonda ianə versinlər. Bizdə isə könüllü ianələrin verilməsi mədəniyyəti yüksək deyil. Bu, ancaq dövlət fondu ola bilər ki, bu halda da müəyyən çətinliklərin meydana çıxması istisna deyil. Məsələn, belə bir fond yaranarsa, o zaman məhkəmə qaydasında borclu olan valideynlər aliment ödəməkdən daha çox yayınmağa çalışacaqlar.

Bu cür kütləvi yayınma büdcə üçün də müəyyən problemlərə səbəb ola bilər. Bu gün biz boşanmaların sayının sürətlə artmasına şahid oluruq. Bu qədər boşanma fonunda dövlətin həmin alimentləri qarşılamağa imkanının çatıb-çatmayacağı sual altındadır". Hüquqşünasın fikrincə, belə bir fondun yaradılıb-yaradılmaması ilə bağlı qərarın dünya dövlətlərinin təcrübəsinin ətraflı şəkildə öyrənilməsindən sonra verilməsi daha məqsədəuyğundur: "Hesab edirəm ki, biz bu məsələdə digər dövlətlərin təcrübəsini, onların milli xüsusiyyətlərini, həyat tərzlərini ətraflı şəkildə öyrənməli, yalnız bundan sonra müvafiq qərar verməliyik".

✍ Sevinc

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

XÜSUSİ MÜXBİR

# “O kadrlar var və nə vaxtsa üzə çıxacaq...”

**Vətən Müharibəsi Azərbaycanın tarixində, həyatında silinməyən bir iz buraxıb. 3000-ə yaxın şəhidi, qazisi ilə cızıldı bu Vətənin qalib portreti. Onun tarixi hər gün yazılır və erməni vandallarının törətdikləri soyqırımlar, vəhşiliklər bir sənəd kimi dünya ictimaiyyətinə çatdırılır. Bu müharibədə bizim jurnalistlərimiz də qələmi, kamerası, elə silahı ilə döyüşdü. Vətənin çağırışına ilk səsverənlərdən biri olan jurnalist Yelmar Məmmədli kimi... “Həftə içi”nə müsahibə verən _jurnalsit Yelmar Məmmədli_ bir əsgər, bir jurnalist olaraq maraqlı amillərə diqqət çəkib.**



***- Yelmar bəy, bir jurnalist olaraq sənin Vətənin Müharibəsinə gedən yolun haradan başladı?***

- Xatırlayırsınızsa, Tovuz hadisələrindən sonra insanlar meydanlara yığışdı. Bundan sonra Prezidentin səfərbəliklə bağlı xalqa Müraciəti oldu. Ondan sonra Azərbaycan vətəndaşı, Vətənini sevən bir insan kimi müharibəyə getmək üçün könüllü olaraq qeydiyyatdan keçdim. Səhəri məni komissarlığa çağırdılar.

Sentyabrın 21-dən təlimlərə cəlb olundum. Altı gün təlimlərdən sonra sentyabrın 27-də, artıq səhər tezdən döyüşə qoşulan ilk hərbi hissələrdən birinin tərkibində idim. Döyüş yolumuz Füzuli rayonundan başladı. Füzulidən sonra Cəbrayıl, Hadrut, Xocavənd, Şuşada olduq. Döyüş bitəndən sonra, hətta bir müddət orada qaldım. Xocalıya kimi gedib-çıxdıq. Mən jurnalist olsam da, bir əsgər kimi müharibədə iştirak etdim.

***- Jurnalistin bir neçə günün içində döyüşçüyə çevrilməsi çətin olmadı ki?***

- Jurnalist kimi həmişə siyasi, hərbi mövzularda reportajlar hazırlayırdım. Ermənilər ardıcıl təxribatlar törədirdilər. Atəşkəsin tez-tez pozulması, Tovuz hadisələri, generalımızın vurulmasından başa düşdüm ki, müharibə yaxınlaşır. Hiss edirdim ki, artıq bir hərəkətlilik var. Çox istəyirdim ki, belə tarixi prosesdə hansısa formada iştirak edim. Bu istəyimə də nail oldum.

***- Hərbi mövzularda reportajların hazırlanması sizə hansı təcrübəni qazandırdı?***

- Dediyim kimi, bir siyasət, hərbdən yazan jurnalist olaraq təlimlərdə çox iştirak eləmişdim. Döyüşlərə qoşulanda da bunları yadırğamadım. Döyüşlərə qatılanda necə davranmaq lazım olduğunu bilirdim.

Təlimlərdə silahların səsini, o prosesləri görürdüm. Yanımda olan uşaqlar var idi ki, artilleriyanın səsindən panikaya düşürdülər.



Mənim üçün bu səs yad deyildi. Hərbi təlimlərdə iştirak edən döyüşçü kimi mənim köməyimə gəldi.

***- Müharibədə əsgər kimi iştirak etsən də, şübhəsiz, baş verənlərə jurnalist müşahidəçiliyi ilə yanaşmısan. Nələri müşahidə etdin?***

- Şükür Allaha, bu sahədə təcrübəm var və düşünürəm ki, bu, maraqdan irəli gələn bir amildir. Bir var, bu məsələni nəzəri öyrənəsən, bir də var, praktiki olaraq sən o anları yaşayırsan, əsgər kimi o həyatın iştirakçısı olursan. Mənə belə gəlir ki, hərb həyatını yaşayan bir insan jurnalist kimi öz peşə fəaliyyətində daha səmərəli, daha məhsuldar ola bilər. Məsələn, günü bu gün 44 günlük müharibə haqqında nəsə bir yazı yazsam, veriliş hazırlasam o məqamları yenidən yaşayaram, çünki görmüşəm.

Bilirəm orada nələr olub, nələr baş verib, biz nələr keçirmişik. O hissləri yenidən yaşayır insan. Sadəcə, məlumat vermək, söz xatirinə o hadisələr haqqında nəsə yazırsan. Bunlar arasında yerlə-göy qədər fərq var. O hadisəni yaşamış adam informasiyanı insanlara daha səmimi çatdıra bilir. O hissi, o həyəcanı, ölümü-itimi yaxından görmək, sonradan onları hiss edərək insanlara ötürmək başqa bir məsələdir.

## Hərbi jurnalistika formalaşmalıdır

***- Bizdə hərbi jurnalistikanın formalaşması prosesi necə gedir. İstərdim bu barədə danışasınız?***

- Azərbaycan mediasında da hərbi jurnalistika formalaşmalıdır. Məsələn, döyüşdə olarkən bizim yanımıza gəlib-gedən jurnalistləri görürdüm. Hər gün döyüş olmurdu, arada bir-iki saat sakitlik də yaranırdı. Mənə elə gəlir ki, jurnalistlərin əksəriyyəti - istər qəzet jurnalistləri, istər xəbər jurnalistləri, döyüş bölgələrində olmalıydı. Bilavasitə həmin əraziləri, koordinatları görməliydilər. Təbii ki, müharibədə hər şeyi yazmaq olmur, hər şeyi göstərmək olmur, bu aydındır. Bir jurnalist kimi istərdim ki, hər bir proses detallarına qədər göstərilsin, hər şey çəkilsin. Məsələn, hərbdə elə gizli məsələlər var ki, jurnalist onu soruşur, hərbçi onu tam açıqlığı ilə izah eləmir. Tutaq ki, qıraqdan baxan əsgər kimi görürdüm ki, burada bu şey olub, amma deyilmir. Deməli ki, deyilmirsə, bunun bir səbəbi, mənası var. Mən də istərdim ki, bütün jurnalistlərin hamısı müharibə vaxtı o döyüş zonasında çəkilişlər aparsınlar; daha bir nəfər, iki nəfər yox. Məsələn, jurnalistlər arasında hansı dilli, hansı çevik, hansı hərbi sahəyə yaxın idisə, onu seçib aparırdılar. Bu, onların hərbi jurnalist kimi püxtələşməsində böyük rol oynayacaq.

***- Bizim jurnalistlər ön cəbhəyə buraxılmadı və bunu müəyyən mənada jurnalistin özünün təhlükəsizliyi baxımından etdilər. Müharibədə gərgin döyüş səhnələrini ifadə edən kadrlarçəkildimi?***

- Açığını deyim, belə kadrların çəkildiyini görmədim. Bilmirəm çəkilib, yoxsa yox. Mənə belə gəlir ki, bu olmamış da olmaz. Birinci Qarabağ savaşından olan o kadrlara baxaraq cavan nəsil yetişdirdik. Bir var söz deyəsən, bir də var, müharibənin dəhşətini göstərəsən, ortada fakt ola. O dəhşətli görüntüləri görəndə insan necə hisslər keçirirdi... Biz o hisslərlə böyüdük, Xocalı soyqırımı qurbanlarını, dəhşətləri, camaatın başına gətirilən müsibətləri görə-görə böyüdük. Yəqin ki, bu, İkinci Qarabağ savaşında, elmin-texnikanın inkişaf etdiyi vaxtda belə kadrlar çəkilməmiş olmaz. O kadrlar var və nə vaxtsa üzə çıxacaq.

***- “Müharibədə xaricdən gələn jurnalistlər daha çox informasiya yaydı”, - deyilərkən buna sizin reaksiyanız, cavabınız nə olur? Heç dedinizmi ki, “Biz belə ola bilərdik”.***

- Əlbəttə, dedik. İstərdim ki, jurnalist kimi çəkilişlər aparmaq üçün mənə o imkanları versinlər və ürəyim istəyən qədər çəkim, hadisələri camaata çatdıra bilim. Əlbəttə, xaricilər bizdən cəld davranıb daha yaxşı məhsul ortaya qoya bilirlərsə, burada qısqanclıq amili yaranır. Nə qədər arzuolunmayan təcrübə olsa da, bizim jurnalistlər də o qədər təcrübə gördülər. Bu istiqamətdə ixtisaslaşma aparılmalıdır.

***- Yelmar bəy, erməni cinayətkarları Gəncəyə, Bərdəyə qadağan olunmuş raketlər atanda, hadisə yerlərinə gedə bildin?***

- Heç birini görə bilmədim, həmin vaxt cəbhədə idik. İnformasiyanı, ancaq komandirlərimizdən alırdıq. Komandirlərimiz deyirdi ki, filan yerə raket atıblar, Gəncəyə atıblar, Bərdəyə atıblar. Mülki insanlarımız həlak olub. Yalnız ağızdan eşidirdik, başqa informasiya almaq imkanımız yox idi.

***- Müharibədən sonra bir jurnalist kimi fəaliyyətə nə vaxt başladın?***

- Mən döyüşçü idim. Müharibə bitəndən sonra sonuncu cəmlənmə məntəqəsində, Cəbrayılda, ermənilərdən götürdüyümüz hərbi hissədə idik. Ora jurnalistlər dəvət olunmuşdu, gəlmişdilər. Orada hazırda işlədiyim Baku TV-yə, AzTV-yə müsahibə verdim.

***- Torpaqlar azad edildikdən sonra hansı rayonda oldun?***

- İşğaldan azad olunmuş rayonlardan Kəlbəcər istiqamətində olmamışam, Ağdamda da həmçinin. Qalan rayonların əksəriyyətindən döyüş yolumuz keçib. Ona görə də deyə bilərəm ki, Qarabağ torpağının əksər rayonlarında olmuşam. Bu yaxınlarda Ağdama təşkil olunan media turu vasitəsilə getdim. Oradan reportaj hazırladıq. Ağdama gedəndə Xocalı faciəsininn ildönümü ərəfəsi idi. Orada bizi bir kəndə apardılar - Şelli kəndinə. Məsələn, orada bildim ki, həmin vaxt camaat Xocalıdan qaçanda, dağlardan, meşələrdən, dərələrdən aşaraq Şelliyə gəlib. Sonra internetdən Şelli haqqında daha çox məlumat almaq istədim. Axtarış verdim, bir-iki cümlədən başqa kənd haqqında o qədər məlumat çıxmadı. Şellidə məktəb tikilməsi barədə xəbər var idi. Onu da hansısa Fransada yaşayan erməni milyonçunun tikdirdiyi qeyd olunurdu. Bu cür bir-iki məlumatdan başqa qarşıma məlumat çıxmadı. İşğal altında qalan, azad olunan rayonlarımız haqqında informasiyada çox boşluq var. Hər kənd, hər rayon, hər dağ uğrunda gedən savaşlardan, erməni işğalından, orada nə qədər insanın düşmən tərəfindən məhv edilməsindən yazılmalı və internet səhifələrinə yüklənməlidir. Bu məsələləri niyə lazımınca ortaya qoymayaq ki, gələcək nəsillər öyrənsin?! Məlumatlar müxtəlif dillərdə olmalıdır. Hər rayon haqqında axtarış verən bir xarici vətəndaş başımıza gətirilən təcavüz, işğal, erməni vandallığı barədə bilməlidir. Məsələn, cavan nəsil olaraq intenetdə axtarış verəndə heç bir məlumat almadım. Bunu camaatdan eşitmişəm.

***- İnformasiya müharibəsinin bu sahəsində niyə geri qalırıq? Nəyə görə informasiya texnologiyaları əsrində internet üzərindən düşünülmüş geniş təbliğat qura bilmirik?***

- Bu informasiya müharibəsinin nəticəsini Birinci Qarabağ savaşında gördük. Onlar bizi qabaqladılar, onlar dünyaya bizi barbar xalq kimi təqdim eləməyi bacardılar. Xocalı faciəsini üstümüzə yıxmağa çalışırdılar ki, guya orada olan hadisələri özümüz törətmişik. Bunlar hamısı bizim o vaxt buraxdığımız boşluqlardan irəli gəldi.

***- Bu gün o boşluqlar doldurulurmu?***

- Mənə belə gəlir ki, Vətən müharibəsində o boşluqları yetərincə doldurduq. Niyə səhv informsiya yayılır? İnformasiya vaxtlı-vaxtında auditoriyaya verilmir və istər-istəməz ortalığa feyk-nyuslar çıxır. Kimsə səni qabaqlayır, olan hadisəni başqa cür təqdim edir.

## “Bizim danışılacaq çox sözümüz var”

***- Torpaqlarımız azad olunub və ermənilərin vandallığı ortadadır. Jurnalistlərin öz təşəbbüsü ilə gedib çəkilişlər aparması nə dərəcədə mümkündür?***

- Məsələn, Ağdama getdik, lazımi çəkilişlər elədik. Jurnalisitlərin öz təşəbbüsü ilə getməsi hələ ki, mümkün deyil. Oralar minalanmış zonadır. Tam əminliklə deyirəm, bu belədir. Həmin yerlərə lentlər çəkilib və sən ancaq bu istiqamətə hərəkət eləməlisən. Oradan ayağını sağa-sola qoysan, hər cür hadisə baş verə bilər. Fikirləşin ki, təşəbbüsümüzlə Qarabağa getmişik, yanımızda da bir neçə nəfər var. Biz də çəkməyə həvəsliyik axı. Otuz ildən bəri haqqında danışdığımız torpaqlara getmişik. Adam istəyir hər yeri çəksin. Çəkiliş prosesində başımıza bir iş gəlsə, onda necə olacaq. Bu səbəbdən media-turlarla hərəkət etməyə məcburuq. Sabah, biri gün o lentləri aradan qaldırarlar, o zaman hər yerə gedərik, çəkilişlər aparariq. Qəbiristanlıqları, abidələri, qəbir daşlarını, hər tərəfi çəkərik...

Düşünürsən, adamı dəhşət bürüyür. Bu vandal erməni qəbir daşlarını niyə məhv edir? Qəbirdəki sümükləri nə edir? Ağdamda çəkilişlər edəndə dəhşətə gəlirdik ki, niyə qəbirləri dağıdıblar? Orada bir ata öz oğlunun qəbrini tapdı.

Başladı ot-ələfin təmizləməyə, içi də bom-boş idi. Bir qadın gəlmişdi, Xocalı sakini idi. Yoldaşının qəbrini axtarırdı, tapa bilmədi. Qəbirlərdən nişanə deyilən bir şey yox idi. Erməni vandallığını göstərmək üçün yüksək birlik nümayiş etdirib, o faktları çəkmək, təbliğ eləmək lazımdır.

***- Döyüşçü jurnalist olaraq həmkarlarınıza nə deyərdiniz?***

- İstərdim ki, jurnalistlərimiz Qarabağ savaşında iştirak edən qazilərdən, şəhid ailələrindən, eləcə də müharibədən sağ-salamat gələn əsgərlərdən müsahibələr götürsünlər, onların keçdiyi yolu işıqlandırsınlar. Bizim danışılacaq çox sözümüz var. Bu istiqamətdə reportajları, müsahibələri, görüşləri çox eləsinlər, cəmiyyət bizim necə oğullarımızın olduğunu bir daha görsün. Qoy dost sevinsin, düşmən xar olsun. Döyüşən əsgərdən götürülən hər bir müsahibə müharibədə iştirak edən hər bir əsgərin Vətən sevgisini, düşmənə nifrətini və öz torpağı uğrunda canından keməyə hazır olan bu xalqın dəyərlərini, gücünü, Vətən ruhunu dünyaya çatdırmış olacaq. Torpaqlarımızı işğal etməyə cəhd edən, yaxud onu kimlərəsə peşkəş etməyə çalışan böyük güclər Azərbaycan əsgərinin, onun dəmir yumruğunun qarşısında dayana bilməyəcəyini görsün, pis niyyətlərindən əl çəksinlər.

*“ Azad olunan rayonlarımız haqqında informasiyada çox boşluq var*

*“ Xocalı sakini olan qadın Ağdamda yoldaşının qəbrini axtarırdı, tapa bilmədi*

***✍ Tahirə Qafarlı***



**■ Daha bir qazi hər iki ayağı üçün yüksək texnologiyalı protezlərlə təmin edilib. Nazirlikdən hafta.az-a bildirilib ki, Vətən müharibəsində şərəfli döyüş yolu keçən Abdulla Abdullayev döyüşlərin birində ağır yaralanaraq hər iki ayağını itirib.**

Prezident İlham Əliyevin Sərəncamı ilə o, “Cəsur döyüşçü” medalı ilə təltif edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Abdulla Abdullayevi yüksək texnologiyalı protezlərlə təmin edib. Mingəçevir şəhər sakini olan Abdulla bu məqsədlə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinə dəvət edilib.

Mərkəzdə ilkin müayinəsi və müvafiq işlər aparılıb.



**■ Ölkəmizdə aparılan ardıcıl sosial islahatlar şəraitində minimum əməkhaqqının mütəmadi artımı həyata keçirilir. Xüsusilə 2019-cu ildə reallaşdırılan islahatlar nəticəsində minimum əməkhaqqı 2 dəfəyə yaxın artırılıb.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən hafta.az-a bildirilib ki, bu artımlar ölkəmizdə xalis minimum əmək haqqının xalis orta aylıq əmək haqqına olan nisbəti göstəricisinin qabaqcıl beynəlxalq normalara uyğunluğunun təmin edilməsi istiqamətində də son üç ildə ciddi irəliləyişlərə imkan verib. Belə ki, həmin nisbətin göstəricisi 2018-ci ildə 26,5% olduğu halda 2019-cu ildə 33,3% təşkil edib. 2020-ci ildə isə xalis minimum əmək haqqının xalis orta aylıq əmək haqqına olan nisbəti göstəricisi 38%-ə yüksəlib.



**■ Fərdi yaşayış üçün bələdiyyələrdən torpaq alan zaman qiymətin necə müəyyən edilməsi məsələsinə aydınlıq gətirilib.**

Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin bu gün keçirilən onlayn brifinqində qeyd olunub ki, bələdiyyə torpaqları həm birbaşa alqı-satqı ilə mülkiyyətə verilir, həm də müsabiqə vasitəsilə ayrılır.

Bələdiyyə mülkiyəktində olan torpaq sahəsinin fərdi yaşayış evinin tikilməsi üçün verilməsi zamanı onun qiyməti hərrac və müsabiqə üçün verilən ilkin qiymət, torpağın normativ qiyməti, bazar məzənnəsi nəzərə alınmaqla bələdiyyələrin özləri tərəfindən müəyyən edilir.



**■ Bir şeyi anlamaq lazımdır ki, Donbasdakı situasiya təcrid olunmuş deyil. Moskvada bunu Rusiya və Qərb arasında böyük qarşıdurmanın bir hissəsi kimi görürlər. Bunu rusiyalı hərbi ekspert Pavel Felgenhauer deyib.**

“Böyük qarşıdurmanın çox cəbhəsi var. Bunlar Suriya, Cənubi Qafqaz, Arktika və Belarusdur. Moskva güman edir ki, Qərb Rusiyaya qarşı çox cəbhələrdə hibrid müharibə aparır. Ukrayna da onun hissələrindən biridir. Medvedçuka qarşı sanksiyalar Moskvaya görə Qərbin ona müharibə elan etməsidir. Moskva düşünür ki, əgər müharibə elan edirlərsə, o zaman ilk biz vurmalıyıq.



**■ İşğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları tərəfindən silah-sursatların aşkar edilməsi məqsədi ilə profilaktiki tədbirlər davam etdirilir.**

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Bərdə regional qrupundan hafta.az-a verilən məlumata görə, Füzuli Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilmiş növbəti belə tədbirlər zamanı erməni hərbi birləşmələrinin ataraq qaçdığı 20 ədəd “Spayk” markalı tank əleyhinə idarəolunan raket kompleksi, 2 ədəd SPQ-9 markalı tank əleyhinə raket kompleksi, 11 ədəd müxtəlif markalı piyada əleyhinə raket kompleksləri, 2 ədəd qumbaraatan, 78 ədəd qumbaraatan mərmisi, 6 ədəd avtomat sandığı və 330 ədəd pulemyot gülləri aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.




**■ Çexiya “Cənub Qaz Dəhlizi”nə çıxış əldə etməyə ümid edir. Bunu Trend-ə Çexiya Sənaye və Ticarət Nazirliyindən bildiriblər.**

Qeyd olunub ki, hələlik ”Cənub Qaz Dəhlizi” ilə hələlik Azərbaycan qazının birbaşa Çexiyaya tədarükü mümkün deyil, amma bu layihənin vacibliyi ilk növbədə bütün Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin olunmasında ifadə olunur: ”Biz Trans-Adriatik qaz kəmərinin tikintisinin başa çatmasını və Azərbaycan qazının İtaliyanın cənubuna birbaşa nəqlini müsbət qiymətləndiririk. Hesab edirik ki, Azərbaycan təbii qazını Çexiya qaz bazarına birbaşa tədarük etmək mümkün olacaq. Çexiya tərəfi ”Cənub Qaz Dəhlizi” layihəsini dəfələrlə ikitərəfli əsasda, həm də Aİ çərçivəsində dəstəkləyib”.

QƏHRƏMAN DÖYÜŞÇÜLƏRİMİZİ TANIYAQ

# Xüsusi Təyinatlı Qüvvələrin zabiti

# ŞƏHİD KAPİTAN ELÇİN İSMAYILOV

*“Hər bir insan öz sevgisi qədərdir”, - deyirlər. Vətənini, torpağını canından çox sevən, tək amalı onu qorumaq olan şəhidlərimizin ucaldığı zirvə də buna ən bariz nümunədir. Bir-birindən fərqli yüzlərlə həyatı birləşdirən yeganə məhfum Vətənimizə, bayrağımıza, milli kimliyimizə və azadlığımıza olan məhəbbətdir. Bir azdan haqqında bəhs edəcəyimiz qəhrəmanımız Qarabağ fədaisi Xüsusi Təyinatlı Qüvvələrin zabiti, Qərargah rəisinin müavini, kəşfiyyatçı, döyüşü idarə edən komandir şəhid kapitan Elçin İsmayılovdur. Kapitan Elçin Mübariz oğlu İsmayılov 30 may 1989-cu ildə Ucar rayonunda anadan olub. 1995-ci ildə Ucar rayonunun 1 saylı orta məktəbinə yollanır və 2006-cı ildə təhsilini “əla” qiymətlərlə bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olur.*



2010-cu ildə ali təhsilini motoatıcı tağım komandiri vəzifəsi üzrə bitirir. Daha sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə Zabitlərin təkmilləşdirmə kursunda dinləyici vəzifəsində xidmət etmək üçün göndərilir və oranı tamamlayır. Elçinin Xüsusi Təyinatlı Qüvvələrdə xidməti isə 2011-ci ilin noyabr ayından etibarən başlayır. O seçimlərdə iştirak edən 300 adam arasında, mərhələni uğurla başa vurmuş 19 nəfərdən biri idi.

Xüsusi Təyinatlı Qüvvələrə daxil olduqdan sonra dəfələrlə Turkiyədə hərbi təlimlərdə iştirak edərək bütün imtahanlardan uğurla keçmiş, Fəxri Fərman və medallarla mükafatlandırılmışdır. Qeyd edək ki, Elçin İsmayılov evli idi. Şəhidimizin Ömər və Mübariz adlarında Vətənə əmanət iki oğul övladı var. Ömər bu il 1-ci sinfə başlayıb, lakin atası müharibədən öncə keçirilən təlimlərdə iştirak etdiyinə görə oğlunun 1-ci sinfə getdiyini görə bilməyib.

**■ Hafta.az şəhidin xalası qızı, Azərbaycan Milli İncəsənət Muzeyinin elmi araşdırmalar söbəsinin elmi işçisi, sənətşünas Yeganə Mövsümova ilə həmsöhbət oldu. O, Elçin İsmayılovla bağlı xatirələrini bizlərlə bölüşdü.**

Müsahibimiz deyir ki, Elçin hələ uşaq vaxtından Vətənə sevgisi ilə hər kəsdən fərqlənib. Orta məktəbdə ən sevdiyi fənlər tarix və hərbi hazırlıq idi. Elə əbəs yerə deyil ki, bu sevgi onu ilk olaraq hərbə gətirdi, ardınca şəhidlik zirvəsinə qədər ucaltdı. Elçindən ilhamlanaraq, vətənpərvər ruhda böyüyən qardaşları da Silahlı Qüvvələrin sıralarında xidmət edirlər:

“O, balacalıqdan televizorda, məktəbdə Xocalı faciəsi haqqında eşidəndə deyərdi ki, gün gələcək, mən bütün bu vəhşiliklərin qisasını alacam”. Nəzərinizə çatdıraq ki, şəhid kapitan Elçin İsmayılov 2016-cı ildə



Aprel döyüşlərinin fəal iştirakçısı olub. Onlar - kəşfiyyatçılar gözəgörünməz qəhrəmanlardır. Ona görə heç bir mənbələrdə adları çəkilmir, çünki düşmən “kabusu” tanımamalıdır. Həmin ildə qardaşı Nurlan da Aprel döyüşlərində iştirak etmişdir.

Bundan başqa o, 2015-ci ilin oktyabr ayından 2016-cı ilin yanvar ayınadək amerikalı təlimatçılar tərəfindən Goran Təlim Mərkəzində yüksək göstərici ilə “Special Operations Training” kursunu uğurla keçərək sertifikatla təltif olunur. 2018-ci ilin iyul ayında Türkiyə Respublikasında “Anadolu Tatbikatı” təlimində iştirak edir. 2019-cu ilin iyul ayında isə pakistanlı təlimatçılar tərəfindən Giləzi Tədris Mərkəzində “Dağlarda döyüş” kursunu bitirir.

Çəkilən heç bir əziyyət, qazanılan uğur əbəs deyildi. Vaxt-vədə yetişir, 30 ilə yaxın düşmən tapdağı altında qalan tarixi torpaqlarımızın fəryadına qəhrəmanlarımız əkshücum əməliyyatları ilə haray verir. Döyüşlərə ilk olaraq Murov dağ zirvəsinin fəthində iştirakı ilə başlayan Elçin İsmayılov daha sonra Cəbrayıl rayonunun azad edilməsində mühüm rol oynayır. Elə 4 oktyabrda Cəbrayıl azad ediləndən sonra ilk bayraq sancan şəxslərdən biri döyüşü idarə edən komandir kapitan İsmayılov Elçin Mübariz oğlu olub. Ermənilərə olan nifrətini həmin




döyüşlərdə erməni polkovnikinin öldürərək qulağına ”sənə Poladın qanını gətirdim!” deməklə bildirir.

Qəhrəmanımız məhz toyunun ildönümü - 7 oktyabr günü Füzuli istiqamətində gedən döyüşlərdə döyüş yoldaşlarını, idarə etdiyi qrupu xilas edərkən snayper güllələsinə tuş gələrək qəhrəmancasına şəhidlik zirvəsinə ucalır. 8 oktyabrda Ucar rayon Şəhidlər Xiyabanında dəf edilir. Qeyd edək ki, İsmayılov Elçinlə bərabər, II Vətən Müharibəsində qardaşları Nurlan və Elvin də ön cəbhədə Vətən uğrunda döyüşüblər. Şəhid kapitan Elçin İsmayılov ölümündən sonra müharibə zamanı göstərdiyi qəhrəmanlığına görə “Vətən uğrunda”, Cəbrayılın, Kəlbəcərin işğaldan azad edilməsi uğrunda əməliyyatlarda igidlik və şücaət nümayiş etdirdiyinə görə “Cəbrayılın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilmişdir.

Allah rəhmət etsin!

*✍ Banu Hüseynli*

# “ASAN xidmət”də göstərilən xidmətlərin sayı açıqlanıb

**“Pandemiya dövrü elektron hökumət sahəsində yeni imkanlar yaratdı. Hər bir iş rəqəmsal identifikasiyadan başlayır. Rəqəmsal savadlılıq yüksək olmalı, inkişaf etməlidir”. Bunu Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “Elektron Hökumətin İnkişafı Mərkəzi” (EHİM) publik hüquqi şəxsin fəaliyyətinin 3 ilinə həsr olunan mətbuat konfransında Elektron Hökumətin İnkişafı Mərkəzinin direktoru Fariz Cəfərov deyib.**

Onun sözlərinə görə, bütün dünyada vətəndaşların ən çox istifadə etdiyi elektron bankçılıq, elektron imza, elektron sosial layihələr, elektron səhiyyə, elektron təhsil, elektron məhkəmə və sairdir: ”2019-2020-ci illər bizim üçün proaktiv xidmətlərə keçid ilidir. 2020-2025-ci illər üçün isə strateji hədəf Azərbaycanda tamamilə kağızsız xidmətin göstərilməsi, süni intellektdən istifadə etməkdir. Eyni zamanda, hədəflərdən biri milli İT Xidmətlərinin xaricə ixrac edən tərəf olmasıdır”. F. Cəfərov deyib ki, ”ASAN xidmət”də bu günə qədər 308 xidmət gös-




tərilir: ”Bu xidmətlərdən 11-i dövlət qurumlarına aiddir. Bu günə qədər 42 milyon müraciət olub və 7,3 milyon vətəndaşa xidmət göstərilib. İnsan dünyaya gələndən ölənə qədər bütün dövrlərdə müəyyən məlumatlar formalaşır. Ötən il hesablamalar apardıq, məlum oldu ki, təxminən, data kataloquna 1000 adda informasiya toplanır.

Əsas məqsəd dövlət qurumlarının vətəndaş haqqında məlumatları həmin mənbənin özündən götürməsidir. ”ASAN login”də yaradılan yeni xidmət də ölkəmizdə yenilikdir, xidmət anlayışı tamamilə dəyişir. Arayışlar demək olar ki, olmayacaq və dataya çevriləcək. Dövlət qurumunun informasiya sistemi digər dövlət qurumunun informasiya sistemi ilə mübadilə aparır. Bu çox ağır iş olsa da, artıq bütün işlərin fundamental əsasları var”.



**■ “Rusiyada bu ilin fevralında bir neçə nəfərdə aşkarlanan “quş qripi”nin yeni növü olan A(H5N8) çox güman ki, tezliklə mutasiyaya uğrayacaq və insandan-insana keçəcək”.**

Bunu Rusiyanın İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmətinin (“Rospotrebnadzor”) rəhbəri Anna Popova TASS-a müsahibəsində deyib.

O bildirib ki, bunun başvermə ehtimalı olduqca yüksəkdir. A. Popova qeyd edib ki, belə bir ssenariyə hazır olmaq, testlər hazırlamaq və peyvənd yaratmağın vaxtıdır. “Təhlükəni görüb dünyanı xəbərdar edə bildik”, - deyə o vurğulayıb. Qeyd edək ki, ötən ay Rusiyada quşçuluq fermasının 7 nəfər əməkdaşında yeni növ “quş qripi” aşkarlanıb.



**■ Bütün digər bazar iştirakçıları ABŞ Prezidenti Cozef Baydenin rəsmi Tehrana qarşı sanksiyaları ləğv etməsini gözləyərkən Çin İrandan neft idxalını artırır. Bu barədə “Al Arabia” agentliyi məlumat yayıb.**

Treyderlərin və analitiklərin məlumatına görə, Çinin emal gücünün dörddə birinin yerləşdiyi Şandun əyalətinə İran xammalının tədarükü bu ay o qədər artıb ki, Çin limanlarında neft tankerləri yığılıb qalıb. “Mart ayının sonuna qədər Çinin İrandan idxal etdiyi neftin həcmi 856 min barrel/günə çatacaq ki, bu da öncəki aya nisbətən 129% çoxdur”, - “Kpler” şirkətinin analitiki Kevin Rayt hesab edir. Qeyd olunub ki, hesablamalarda yanacağın mənşəyini gizlətmək üçün Yaxın Şərqdə və ya Sinqapur, Malayziya və İndoneziya sularında gəmidən gəmiyə boşaldılan neft də nəzərə alınır.




**■ Avropanın müxtəlif ölkələrində Azərbaycan, Türkiyə və İranəsilli futbolçuların milliləşdirilməsi prosesini davam etdirən AFFA-nın maraq dairəsində olan daha 3 oyunçunun adına aydınlıq gəlib.**

Assosiasiya Niderlandda çıxış edən gənc futbolçularla bağlı araşdırma aparır. Qurum konkret olaraq “Ayaks”ın vingeri Tunahan Taşçı, “Utrext”in hücumçusu Özcan Yaşar və “Alkmaar”ın yarımmüdafiəçisi Emir Biberoğlunu diqqətdə saxlayır. Klublarının əvəzedici heyətində çıxış edən hər üç futbolçu Türkiyəəsillidir.

Adıçəkilən gənclər, hətta Türkiyənin aşağı yaş qrupu üzrə yığmalarına da çağırılıb. AFFA-nın skaut heyəti Tunahan, Özcan və Emirin çıxışını müntəzəm izləyir. Hazırda icarə əsasında “Telstar”da çıxış edən gənclər millimizin üzvü Ozan Can Kökçü də futbolçularla danışıqlar zamanı onları razı salmaqda yardım edə bilər.



**■ “Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı çərçivəsində vəzifəli şəxslər tərəfindən müvafiq bəyannamələrin təqdim edilməsi barədə normativ-hüquqi akt layihələri hazırlanıb. Bu, Nazirlər Kabinetinin 2020-ci il üzrə hesabatında qeyd edilib.**

Hesabatda bildirilir ki, hazırda layihələr müvafiq qurumlarla razılaşdırılma mərhələsindədir. Ötən müddətdə baş verən dəyişikliklər nəzərə alınmaqla, qeyd olunan layihələrdə Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyayay maliyyə xarakterli məlumatları təqdim edən vəzifəli şəxslərin siyahısı yenidən işlənilib. Eyni zamanda, maliyyə bəyannaməsinə daxil edilən məlumatların dairəsi dəqiqləşdirilib. Bununla yanaşı, maliyyə xarakterli məlumatların təqdim edilməsi müddətləri və bu məlumatların təqdim edilməsinə nəzarətlə bağlı yeni tənzimlənmələr və s. nəzərdə tutulub.

## SUAL-CAVAB

### *İpoteka ilə alınan mənzili satmaq mümkündürmü?*

- Bəli, mümkündür. Mövcud qaydalara əsasən bu halda borcalanın ipoteka krediti üzrə öhdəliyi başqa ödəmə qabiliyyəti olan şəxsə ötürülür. Öhdəliyin ötürüldüyü şəxs isə ipoteka krediti almaq üçün lazım olan bütün tələblərə cavab verməlidir.

### *Elektrik sayğacına müdaxiləyə görə yenidənhesablaşma necə aparılır?*

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli qərarı ilə təsdiq edilmiş “Elektrik enerjisindən istifadə Qaydaları”nın 8.32-ci bəndinə əsasən istehlakçılar tərəfindən (mənzillər üzrə hesablaşma elektrik sayğacı yaşayış binasının girişində, yaxud pilləkən meydançasında quraşdırılmış məişət abonenti istisna olmaqla) hesablaşma elektrik sayğaclarının qoşulma sxeminin dəyişdirilməsi, sayğacın baxış şüşəsinin sındırılması, plombunun qırılması, sayğacın diskinin süni şəkildə dayandırılması və elektrik enerjisindən istifadə göstərişini azaltmaq məqsədilə edilmiş digər pozuntulara yol verildiyi aşkar edildikdə, enerjitəchizatı müəssisəsi onu şəbəkədən açmalı və hesablaşma elektrik sayğacının sonuncu dəfə əvəz olunması və ya qoşulma sxeminin yoxlanması tarixindən sonrakı müddət üçün, ancaq Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş iddia müddəti daxilində (üç il) elektrik enerjisindən istifadəyə görə yenidən hesablaşma aparmağa borcludur.

### *Fiziki şəxslər tərəfindən təyinatı istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan hesab edilmiş hansı hədlər daxilində siqaret və alkoqollu içki güzəştli qaydada gömrük ərazisinə gətirilə bilər?*

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 oktyabr 2013-cü il tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş ”Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş qaydaları”nın 2.1.10-cu bəndinə müvafiq olaraq, Azərbaycan Respublikası Vergi Məcəlləsinin 188.1.1-ci maddəsi ilə müəyyən olunmuş aksiz vergisindən azadolmalar nəzərə alınmaqla, hər təqvim ayı ərzində bir dəfə 18 yaşına çatmış hər bir fiziki şəxs tərəfindən şəxsi istifadə üçün gömrük ərazisinə gətirilən 1,5 litr alkoqollu içki, 200 ədəd siqaret güzəştli qaydada (gömrük ödənişlərini ödəmədən) gömrük ərazisinə gətirilə bilər.

### *Hansı hallarda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma müddəti uzadılır?*

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə əsasən aşağıdakı hallarda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti olma müddəti uzadılır:

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində təcili müalicə olunmasına zərurət yarandıqda;

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında yaşayan yaxın qohumları ağır xəstələndikdə və ya vəfat etdikdə;

Xidməti zərurətlə əlaqədar Azərbaycan Respublikasına gəlmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən nəzərdə tutulmuş işlərin başa çatdırılmadığına dair həmin şəxsləri ölkəyə dəvət etmiş təşkilat tərəfindən əsaslandırılmış vəsatət verildikdə;

Miqrasiya Məcəlləsinin 19.4-cü maddəsində nəzərdə tutulmuş hallarda;

Tranzit keçid zamanı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vizada göstərilən müddətdən artıq Azərbaycan Respublikasının ərazisində məcburi dayanması aşağıdakı hallarda mümkündür:

Nəqliyyatın hərəkətinə mane olan təbii fəlakət baş verdikdə;

Avtonəqliyyat vasitəsinin (onun hissələrinin) sıradan çıxması, yaxud yol-nəqliyyat hadisəsi nəticəsində təmirə ehtiyac yarandıqda (müvafiq sənəd təqdim edildikdə);

Azərbaycan Respublikasının ərazisindən keçən şəxslər xəstələndikdə (bu halda keçidin davam etdirilməsinin xəstənin səhhəti üçün təhlükə törətdiyinə dair həkimin rəyi olmalıdır);

Əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin atasının, anasının, ərinin (arvadının), övladının, qardaşının, bacısının Azərbaycan Respublikasında müvəqqəti olma müddəti uzadıldıqda. Tranzit keçid zamanı məcburi dayanma baş verdikdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddəti Miqrasiya Məcəlləsinin 41-43-cü maddələrinə uyğun olaraq məcburi dayanmanın səbəbləri aradan qalxanadək artırılır.

Miqrasiya Məcəlləsinin 19.4.3-cü maddəsində nəzərdə tutulmuş halda xəstə şəxslə birlikdə onun yaxın qohumları olduqda, məcburi dayanma onlara da şamil edilir.

*✍ Sevinc*

## Sorğu

# Sənət adamları karantinin sərtləşdirilməsinə necə baxır?

***Hələ qədim zamanlardan bu günə kimi xalqımız Novruz Bayramını ailəsi və yaxınları ilə keçirmək ənənəsini qoruyub saxlayıb. Bu bayramda yaşlı ailə üzvləri qəbiristanlıqları ziyarət edilər. Hər kəs öz sevdikləri ilə bayramlaşır, yazın gəlişini birgə qeyd edir. Son bir ildir ki, tək ölkəmizin deyil, elə dünyanın da nizam-intizamı dəyişib. İndi sevdiklərimizlə birlikdə olmaq üçün onlardan uzaq qalmalı olduğumuz dövrləri yaşayırıq. Bir yerdə toplaşmaq daha əvvəlki kimi rahat və təhlükəsiz deyil. Son günlər sosial şəbəkələrdə Novruz Bayramı ərəfəsi karantin rejimin yenidən sərtləşdiriləcəyi barədə söz-söhbətlər gəzir.***



**Nuriyyə Hüseynova,**
Əməkdar artist, xanəndə

Təbii ki, bu deyilənlər bir çoxlarında narahatlıq doğurur. Həqiqətəuyğun olub-olmaması isə hələ ki məlum deyil. Bəs görəsən, tanınmış simalar, sənət adamları bu mövzuda nə düşünür? Hafta.az-ın əməkdaşı məsələ ilə bağlı məşhurların fikirlərini öyrəndi.

■ **İlk olaraq suallarımızı Əməkdar artist xanəndə Nuriyyə Hüseynovaya ünvanladıq. O bildirdi ki, Novruz özünün ən çox sevdiyi bayramdır. Üstəlik, həmin gün doğmalarını ziyarət etməyə də vərdiş edib:**

"Novruz milli adət-ənənələrimizi özündə cəmləşdirən və ən sevdiyim bayramdır. Bu bayramda evinə heç vaxt getmədiyim qohumlarımı ziyarət etməyi xoşlayıram. Ona görə həmin günü böyük səbirsizliklə gözləyirəm. Ordubadda doğulmuşam, digər bütün bölgələrimiz kimi, burada da uzun illərdir, Novruz Bayramı qədim adət-ənənələrə sadiq qalınaraq keçirilir. Ötən ildən bu günə bütün bu adətlərin icrasına həsrət qalmışıq. Son bir ildə həyat sanki dayanıb. Təbii ki, istəməzdim hər şey bu cür olsun. Əgər xəstəlik sürətlə yayılırsa və sərt karantin bunun qarşısını almaq üçündürsə mütləq olmalıdır. Qanun da hamı üçün eynidir, hamılıqla buna tabe olmalıyıq".

Xanəndə tətbiq edilən məhdudiyyətlərin doğurduğu ziddiyyətləri də təəssüf hissi ilə qeyd etdi. Bəzi şeylərə icazə yoxdur, ancaq onun başqa formasına var:

"Mövzuya başqa tərəfdən yanaşdıqda görürük ki, bir çox məhdudiyyət var ki, ona tam əməl etmək başqa fəsadlar meydana gətirir. Tutaq ki, metro işləmir, buna görə də avtobuslarda sıxlıq yaşanır. Hər gün marketlərdə ara məsafəsi saxlanılmır, insanlar, demək olar ki, nəfəs-nəfəsə dayanır. Elə yerlər də var, ora ayda-ildə bir dəfə 1 adam girir, görürsən ki, onu bağlayırlar. İnsan sıxlığının yaşandığı yerlərə isə göz yumulur. Bu səbəbdən, hamıda bir qədər tərəddüd yaranır. Bəzi şeylərə icazə yoxdur, ancaq onun başqa formasına var... Restoranlar açıqdır, insanlar burada gedib əylənə bilir, toylara, kütləvi tədbirlərə isə qadağalar var. Nə fərqi var ki, ad günü qeyd etmək istəyən 10-15 nəfər dəvət edir və tədbiri restoranda keçirir. Eyni sayda adamın iştirakı ilə nişan mərasimi təşkil etmək istəyən olsa, bu, səs-küy yaradır. Yenə də təkrar edirəm: qanun hər kəs üçün qanundur, icazə varsa hər kəs üçün olsun, yoxdursa olmasın".

Sonda isə Əməkdar artist koronavirus təhlükəsini hələ də tam dərk etməyənlərə səsləndi. O bildirdi ki, nə qədər bayram keçirib, əylənmək istəsək də, sağlamlığımızı gözardı etməməliyik:

"Koronavirusa inanmayanlar bilməlidir ki, bu xəstəlik var. Özü də adi soyuqdəymə kimi yüngül keçib, asan sağala bilən problem deyil. Bu xəstəlik zəif, orqanizmin müqaviməti aşağı olan insanlar üçün ölümlə nəticələnə biləcək qədər təhlükəlidir.

Ətrafımda belə halların şahidi oldum, özüm də xəstəliyi keçirdim, ancaq nə qızdırmam oldu, nə də böyük bir çətinliyim. Həyat yoldaşım isə koronavirusu çox ağır keçirdi. Elə bilin ki, ölüb, təkrar dirildi. Bəzi insanlar bu xəstəlikdən utanırlar. Lap elə sənət adamları arasında elələri var ki, soruşanda ki, "Vəziyyətin necədir?", "Sən yoluxmusanmı?". Deyir yox. Elə ki, mən özümün yoluxub sağaldığımı deyirəm, ondan sonra cavab dəyişir: "Hə, deyəsən mən də tutmuşdum". Əzizlərim, burada utanıb-çəkiniləcək heç bir şey yoxdur. Koronavirus bütün dünyada var və vəzifəli, sıradan vətəndaş fərq etmədən, hər kəs üçün təhlükə yaradır. Demək istədiyim odur ki, bu, tək ölkəmizin problemi deyil, bütün dünya ölkələri hazırda əziyyət çəkir. Mənə elə gəlir ki, əgər doğrudan da xəstəliyin yayılması belə sürətlidirsə, onda tədbir görmək vacibdir. Biz hamılıqla bu tədbirlərə dəstək olmalıyıq. Bir nəfər virusa yoluxursa, özündən savayı minlərlə adamın həyatı üçün təhlükə yaradır. Birmənalı şəkildə xəstəliyin ciddiliyini bilib, ona qarşı tədbir görməliyik. Sağlamlıq dünyadakı hər şeydən önəmlidir. Bayramları, gəzməyi, səyahəti, alış-veriş etməyi nə qədər çox sevsək də, sağlam deyiliksə, bütün sadalananlar heçdir. Hər kəsə sağlamlıq arzu edirəm. Ona görə də çalışaq, özümüzü və ətrafımızı qoruyaq".

■ **Daha sonra isə mövzumuzu tanınmış meyxana ustası Namiq Məna ilə müzakirə etdik. Onun sözlərinə görə, Novruz Bayramı ərəfəsində karantin rejiminin yenidən sərtləşdirilməsi zəruridir:**

"Bilirsiniz ki, koronavirus indi bütün dünyanı çənginə alıb. Üstəlik bu, olduqca ciddi xəstəlikdir. Dövlət tərəfindən görülən tədbirlər də təbii ki, vətəndaşların xeyrinədir. Atılan hər bir addım bizi düşünərək hesablanır. Mən bunu çox təqdirəlayiq hesab edirəm. İndi əhali də əvvəlki dövrlərə nisbətən vəziyyətin ciddiliyini daha yaxşı anlayır. Koronavirus yayılmağa təzə başlayanda özüm də daxil olmaqla, bir çoxları buna laqeyid yanaşırdı, hətta inanmırdılar. Sonradan yaşanan ölüm hallarını, virusdan əziyyət çəkənləri gördükcə anladıq ki, COVID-19 doğrudan da ciddi xəstəlikdir. Bunu tam məsuliyyətimlə söyləyirəm ki, koronavirus çox təhlükəlidir və ondan qorunmaq lazımdır. Qarşımızdakı hər kəsə virusdaşıyıcısı kimi yanaşmalıyıq.



**Namiq Məna,**
meyxana ustası

Fikrimcə, görülən tədbirlərin hər biri indiki vəziyyətdə zəruridir. Düzdür, insanları da başa düşürəm, onlar səbirsizlik edirlər. Aydın məsələdir ki, elə sənət adamları, artrıq 1 ildir el şənlikləri yoxdur deyə işsizdir.

Xəstəlikdən əziyyət çəkən yaxınlarımızı, doğmalarımızı, elə vəfat edən sənət adamlarını nəzərə almalıyıq. Mənim doğmalarımdan da virusa yoluxanlar oldu. İnanın ki, onların həyati təhlükələri var idi. Səhiyyəmizin gücü sayəsində şükürlər olsun, indi vəziyyətləri yaxşıdır. Bir daha təkrar edim ki, görülən tədbirlərin hər biri vətəndaşların sağlamlığı üçün lazımlıdır.

■ **Növbəti müsahibimiz isə Xalq artisti Aygün Bayramova oldu. O, həmkarlarından fərqli olaraq, karantin rejiminin sərtləşdirilməyin tərəfdarı deyil.** Sənətçinin fikrincə, yaxşı olardı ki, qoyulan qaydalar çərçivəsində Bayram günləri qeyd edilsin:



**Aygün Bayramova,**
Xalq artisti

"Hazırda heç kim istəmir ki, bayramərəfəsi karantin sərtləşsin. Qərarın hansı yöndə olacağını bilmirəm, amma düşünürəm, insanları nəzərə almaq lazımdır. Sağlamlıq baxımından yanaşsaq, karantinin sərtləşdirilməsi lazımdır. Vətəndaşlar son 1 ildə çox çətinlik yaşadılar. Neçə gündür sosial şəbəkələrdə də yazılır ki, sərt karantin tətbiq ediləcək, yollar bağlanacaq, SMS-icazə yenidən aktivləşəcək. Bütün bunlar insana psixoloji təsir edir. Daha yaxşı olardı ki, qayda-qanunlara riayət edək və sərt karantin tətbiq edilməsin. Onsuz da indi hamı açıq havada da maska taxır. İnanın ki, küçədə də, işdə də maskasız adam görmürəm. Son günlərdə yoluxanların sayında da artım var. Hər halda, karantinin yenidən sərtləşdirilməsini istəməzdim".

■ **Son olaraq sevilən ifaçı Elçin Hüseynovun mövzuya münasibətini öyrəndik. İfaçı hazırda xarici ölkədə olduğunu bildirdi. Əlavə etdi ki, qərardan asılı olmayaraq, insanların düşüncələrini də nəzərə almaq lazımdır.** "Uzun müddətdir ki, ölkədə deyiləm, Rusiyadayam. Buna görə də hazırda virusla bağlı oradakı vəziyyəti dəqiq bilmirəm. Onu deyə bilərəm ki, burada da koronavirus var. Yoluxmaya qarşı tədbirlər də görülür, lakin bizdəki kimi deyil. Lazım gəlsə karantin sərtləşdirilməlidir, sözüm ondadır ki, bəzi amilləri nəzərə almaq lazımdır".



**Elçin Hüseynov,**
müğənni

Məşhurların mövzuya münasibətini öyrəndik. Düşüncələr fərqlidir, ancaq ortada koronavirus kimi təhlükəli bir reallıq var. Bayram günlərində yenidən sərt karantin rejiminin tətbiq edilib-edilməyəcəyindən asılı olmayaraq, bu günlərdə hər kəsə sağlam qalmağı arzu edirik.

***Banu***

## Prezident təqaüdçüsünün itirdiyi qədim balabanı tapıldı

**Bir neçə gün əvvəl Prezident təqaüdçüsü balaban ifaçısı, adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılan Nicat Məsimov Səbail rayonunda yerləşən Xaqani bağında olan zaman içərisində qədim balaban alətləri olan çantasını itirib.**

Daxili İşlər Nazirliyindən hafta.az-a verilən məlumata görə, bundan sonra N.Məsimov yaşı təxminən 100-150 il olan alətlərin tapılması üçün ərazi üzrə Səbail Rayon Polis İdarəsinin 39-cu Polis Bölməsinə müraciət edib. Bölmə əməkdaşlarının həyata keçirdikləri axtarışlar nəticəsində N.Məsimovun çantasını tapan amma qaytarmaq üçün polis orqanlarına təhvil verməyərək özündə saxlayan şəxs qısa zamanda müəyyən edilib. Onun şəxsiyyəti dəqiqləşdirilib və balabanlar polislər tərəfindən qeyd edilən şəxsdən alınaraq N.Məsimova geri qaytarılıb. N.Məsimov balabanların qısa zamanda tapılaraq ona geri qaytarılmasında göstərdikləri operativliyə və onun müraciətinə belə həssas yanaşdıqlarına görə polis əməkdaşlarına təşəkkürünü bildirib.

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏLTİFİ



Azərbaycan Prezidenti İlham Əliyev Bəylər Eyyubovu təltif edib. Dövlət başçısının bununla bağlı verdiyi sərəncama əsasən, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətində səmərəli fəaliyyətinə, vəzifə borcunu peşəkarlıqla yerinə yetirdiyinə görə Bəylər Həsən oğlu Eyyubov "Şərəf" ordeni ilə təltif edilib. Qeyd edək ki, Prezidentin Təhlükəsizlik Xidmətinin rəisi olan B. Eyyubovun bu gün 70 yaşı tamam olur.

### Həftənin DƏSTƏYİ



Millət vəkili Fazil Mustafa gizli şəkildə toy, yas mərasimləri keçirənlərlə bağlı münasibət də bildirib: "Düz edirlər, başqa nə etməlidirlər? Çox adam yığmaq olmaz, əvvəllər şöhrətpərəstlikdən edirdilər bunu. Amma qadağalar edəndə sosial problem yaradır. Heç olmasa deyilməlidir ki, 20 nəfərlik toya icazə verilir. Verilmirsə, insanlar nə etməlidir?! İnsan gizli formada edəcək də... Bu da iqtisadiyyat kimidir. Necə ki, əvvəllər sovet dövründə də xarici ölkələrin paltarlarını geyinməyi qadağan edirdilər. Hamı qara bazardan, "Kubinka"dan paltar tapırdı. Qadağan edəndə bilməlisən ki, insanlar onu hansısa formada əldə edəcəklər".

### Həftənin HÖKMÜ



Rusiyanın Ankaradakı səfiri Andrey Karlovun qətli ilə bağlı məhkəmə prosesinə yekun vurulub. Səfirin qətli ilə əlaqəsi olan bir neçə nəfərə hökm oxunub. Cinayətdə FETO lideri Fətullah Gülən də daxil olmaqla, 28 nəfər ittiham olunub. Prosesin yekununda üç müttəhimə iki ömürlük, bir müttəhimə bir ömürlük həbs qərarı verilib. Ankara İkinci Ağır Cinayətlər Məhkəməsi yeddi müttəhim barəsində FETO üzvlüyünə görə 7 il 6 aydan 10 il 6 aya qədər dəyişən müddətli həbs cəzası qərarı çıxarıb. Səfirin qatili Mövlud Mert Altıntaşa sui-qəsd təlimatı verən Salih Yılmaz və Şahin Sögüt iki ömürlük həbs cəzasına məhkum ediliblər.

### Həftənin SÖZÜ



"Xaricdə dincəlmək istəyən vətəndaşları süni şəkildə ölkədə saxlamayacağıq". Bunu hökumət nümayəndələri ilə iclasda Rusiya Prezidenti Vladimir Putin dilə gətirib. Rusiya lideri ölkədə vaksinasiya prosesinin sürətləndirilməsinə ümidvar olduğunu bildirib. "İqtisadiyyatlarında turizmin böyük yer tutduğu bəzi ölkələr artıq turistlərə qapılarını açmağa başladığını elan edir. Biz, əlbəttə, yay tətillərini xaricdə keçirmək istəyən vətəndaşlarımızı süni olaraq ölkədə saxlamamalıyıq və bunu etməyəcəyik də", - Putin əlavə edib. O vurğulayıb ki, rusların ənənəvi olaraq tətilə getdikləri bir çox ölkələrdə koronavirusun yaratdığı vəziyyət qarışıqdır.

### Həftənin XƏSTƏSİ



Əməkdar artist Zöhrə Abdullayeva xəstəxanaya yerləşdirilib. Bu barədə "Elgizlə izlə" proqramında məlumat verilib. 30 kq çəki itirən müğənninin son görüntüləri efirdə də yayımlanıb. Z. Abdullayeva açıqlama verərək oğlunun ölümündən sonra səhhətində ciddi problemlər yarandığını bildirib: "Heç nə yemək istəmirəm. Balamdan sonra bu günlərə qaldım. Görün, özümü nə günə qoydum... Kök hüceyrə köçürməyi dedilər, amma yox, revmatizmam var. Buna görə müalicə olunmalıyam. Həkim dedi ki, çox gecikdirmişəm. Xəstəliyin son həddindəyəm".

### Həftənin TƏRİFİ



Avropa Yayım Birliyi (EBU) Belarusun "Eurovision" mahnısını diskvalifikasiya edib. Dövlət kanalı BTRC TV-nin seçdiyi "Galasy ZMesta" qrupu ifasında siyasi mesajlara yer verib. "Ya nauchu tebya" (Mən səni öyrədərəm) mahnısında Prezident Aleksandr Lukaşenkoya sətiraltı dəstək göstərilərək müxalif qüvvələr tənqid olunub. Həmçinin, qrupun digər mahnılarında da dövlət başçısına sətiraltı və birbaşa dəstək özünü büruzə verir. Mahnının klipi "Eurovision"un rəsmi "Youtube" səhifəsindən də silinib. Çoxlu sayda müraciətdən sonra EBU bəstə barədə qərar verib və KİV-ə açıqlama yayıb. Bildirilib ki, Avropa Yayım Birliyi Belarus nümayəndə heyətinə göstəriş verərək mahnının dəyişdirilməsini tələb edib.

***Azad Əliyev***

## GÜNÜN FOTOSU



**Milli Qvardiyanın üzvü Hanna Bolder bir müddət əvvəl qan tökülən Kapitolidə gitara çalır...**

## Aliment Fondunun yaradılması yenidən gündəmdə

**Sahib Məmmədov,**
hüquqşünas

Təəssüflər olsun ki, hazırda alimentin verilməsi ilə bağlı çıxarılan qərarların icrası çətin olur.

Səh. 4

## STATİSTİKA



■ Bir insanın digərinə qarşı simptiyası ilk görüşdə, xüsusilə də ilk ünsiyyətin ilk 4 dəqiqəsində yaranır.

■ Kişilərin orqanizmində yağın kütləsi bədənin ümumi kütləsinin 12 faizinə bərabərdir. Qadınlarda bu göstərici 26 faizdir.

■ Kişilərin dərisi qadınların dərisi ilə müqayisədə orta hesabla 0,2 mm qalındır, 10 dəfə isə az həssasdır.

■ Kişilərin beyni orta hesabla həcminə görə qadınların beynindən 8-13 faiz böyük, çəkidə isə 150 qram ağırdır.



Səh. 3

## Azərbaycan və Ermənistan konstruktiv yanaşma nümayiş etdirir